Azərbaycan İlahiyyat İnstitutu

# Bülleten

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 8
iyul-dekabr
2023



"Milli Qurtuluşdan möhtəşəm zəfərə" mövzusunda konfrans
səh.25



Bilal Ərdoğan AİI-ni ziyarət edib
səh.13



səh.28
"Heydər Əliyev irsinin gənc nəslin vətənpərvərlik ruhuna təsiri" mövzusunda tədbir



"Biliklərarası inteqrasiya" mövzusunda Yay məktəbi
səh.2-3

**Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti AİI-də**
səh.5



Fəxri professor diplomu təqdim edilib
səh.26



"İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda II beynəlxalq simpozium
səh.14-15



**Zəfər Günü qeyd edildi**
səh.19



**İkitərəfli əməkdaşlıq əlaqələri qurulur**
səh.5

İslam maliyyəsinə dair dərs vəsaitinin təqdimat mərasimi keçirilib
səh.29



Anlaşma Memorandumu imzalanıb
səh.16

# "Biliklərarası inteqrasiya" mövzusunda Yay məktəbi

Azərbaycan İlahiyyat İnstitutunun imtahanlarda yüksək nəticə göstərən tələbələri 3 iyul 2023-cü il tarixində "Biliklərarası inteqrasiya" mövzusunda Yay məktəbinə yollanıblar.

Qəbələ rayonunda baş tutan Yay məktəbi Azərbaycan İlahiyyat İnstitutu və "İdrak" İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilib.

Yay məktəbinin ilk günündə açılış nitqi ilə çıxış edən AİÎ rektoru, dosent Aqil Şirinov tələbələrə uğurlar arzulayıb. İnstitut tərəfindən təşkil edilən Yay və Qış məktəblərinin əhəmiyyətini vurğulayan rektor qeyd edib ki, gənclər mütəmadi təşkil edilən kurslarda, Yay məktəblərində fəal iştirak etməli, bilik və bacarıqlarını artırmalıdırlar. Rektor qeyd edib ki, istəyimiz zəngin dünyagörüşlü, yüksəkixtisaslı, xalqını, dövlətini sevən, onu qoruyan kadrları cəmiyyətə təqdim etməkdir.

Müxtəlif mövzularda məruzələrin baş tutacağı Yay məktəbində ilk məruzəni Məqasid İnstitutu (ABŞ) icraçı direktorunun müavini, Biliklərarası İnteqrasiya İnstitutunun (Gürcüstan) metodologiya problemləri, İslam epistemologiyası, İslam iqtisadiyyatı və maliyyəsi məsələləri üzrə eksperti, dr. İldus Rafikof təqdim edib. "Biliklərarası inteqrasiya: ideya və praktika" mövzusunda çıxış edən məruzəçi sekulyarizasiya, parçalanma, əməyin bölünməsi, texnoloji inqilab, dini elmlərin müasir dövrün çağırışları kontekstində yenidən dəyərləndirilməsi kimi aktual məsələlər haqqında ətraflı danışıb.

Məruzəçi – Frayburq Universiteti Frayburq Qabaqcıl Tədqiqatlar İnstitutunun (Almaniya) böyük elmi işçisi, Biliklərarası İnteqrasiya İnstitutunun akademik məsələlər üzrə direktoru, dr. Elmira Axmetova "İslam sivilizasiyasının başlıca prinsipləri" və "İntellektual müsəlman fikrinin tarixi sosial kontekstdə öyrənilməsinin əhəmiyyəti" mövzularında çıxış edib.

* * *

Azərbaycan İlahiyyat İnstitutu və "İdrak" İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Biliklərarası inteqrasiya" mövzusunda yay məktəbi iyulun 4-də davam edib.

Yay məktəbinin növbəti günündə tələbələr müxtəlif mövzularda məruzələr dinləyiblər.

Məqasid İnstitutu icraçı direktorunun müavini, Biliklərarası İnteqrasiya İnstitutunun metodologiya problemləri, İslam epistemologiyası, İslam iqtisadiyyatı və maliyyəsi məsələləri üzrə eksperti, dr. İldus Rafikof "Yeni məqasid metodologiyası: bir daha İslam erudisiyası haqqında", "İslam epistemologiyası və tənqidi təfəkkür" mövzularında məruzə ilə çıxış edib. Məruzəçi çıxışında dini qaydaların məqsədlərinin müxtəlif prizmaları və buradakı problemlər, Quranın məntiqi və məqsədi, İslam elmlərindəki problemlər, bilik, elm və həqiqətin mahiyyəti kimi mövzularda fikirlərini bölüşüb.

Məruzəçi – Frayburq Universiteti Frayburq Qabaqcıl Tədqiqatlar İnstitutunun böyük elmi işçisi, Biliklərarası İnteqrasiya İnstitutunun akademik məsələlər üzrə direktoru, dr. Elmira Axmetova "Tədqiqatlarda dünyagörüşü amilinin əhəmiyyəti" mövzusunda çıxış edib. E.Axmetova məruzəsində tədqiqat nədir; hansı formada aparılmalıdır; tədqiqatlarda elmi metodun önəmi; tədqiqatlardakı problemlər; dünyagörüşünün önəmi, milli, dini, ateist, kommunist və liberal baxışların tədqiqatlara təsiri kimi mövzulara toxunub.

* * *

Azərbaycan İlahiyyat İnstitutu və "İdrak" İctimai Birliyinin "Biliklərarası inteqrasiya" mövzusunda birgə təşkil etdikləri Yay məktəbi iyulun 5-də davam edib.

Yay məktəbinin növbəti günündə Moskva Dövlət Psixologiya və Təhsil Universiteti Etnopsixologiya və polimədəni təhsilin psixoloji problemləri kafedrasının müdiri, dr. Olqa Pavlova (Rusiya) "İslam psixologiyası: keçmişdə və indi. Mövzuya giriş"; "İslam psixologiyasının mənbələri: Quran, hədislər və müsəlman alimlərinin yaradıcılıqları"; "İslam psixologiyasının bugünü: praktik aspektlər" mövzularında məruzələr edib.

Olqa Pavlova məruzəsində psixologiyanın mahiyyəti, İslam psixologiyasının əhəmiyyəti, İslam psixologiyasının meydanagəlmə dövrü, İslam psixologiyasının əsasını qoyan şəxslər və müasir dövrdəki vəziyyəti; "nəfs" anlayışı, Quran və hədislərdə "nəfs" məfhumu və "ruh" anlayışı; Quran və hədislərdə ruh və nəfsin müqayisəsi; "fitrət" kəlməsinin Qurani-Kərimdə işlədilməsi kimi əhəmiyyətli mövzulardan bəhs edib.

* * *

Azərbaycan İlahiyyat İnstitutu və "İdrak" İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Biliklərarası inteqrasiya" mövzusunda Yay məktəbi iyulun 6-da davam edib.

Yay məktəbinin növbəti günündə məruzəçi – Azərbaycan İlahiyyat İnstitutunun dosenti, AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Din və ictimai fikir şöbəsinin aparıcı elmi işçisi – f.f.d., dos. Elvüsal Məmmədov müxtəlif mövzularda məruzələrlə çıxış edib.

"Biliklərarası inteqrasiya ideyası, yaxud vəhyin real aləmlə harmoniyası haqqında"; "Qurana

münasibətdə metodoloji əsaslar”; “Hədislərə münasibətdə metodoloji-nəzəri əsaslar” mövzularında məruzə edən dos. Elvüsal Məmmədov tələbələrə ilahiyyat sahəsi üzrə bir çox tövsiyəsini çatdırıb. O, məruzəsində Azərbaycanın dini mühitində vəziyyət, İslamda sünnənin yeri, sünnə və hədis materialları arasında fərq, İslamın başlıca universal prinsipləri kimi mühüm məsələlərə toxunub.

Qeyd edək ki, bir həftə davam edən Yay məktəbində xarici universitetlərin və ölkəmizin tanınmış ilahiyyatçılarının məruzələri dinlənilib.

* * *

Azərbaycan İlahiyyat İnstitutu və “İdrak” İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən “Biliklərarası inteqrasiya” mövzusunda Yay məktəbi iyulun 10-da davam edib.

Yay məktəbinin sonuncu günü İslam iqtisadiyyatı üzrə ekspert Anar Yusifzadə “İslam iqtisadiyyatı və maliyyəsi” mövzusunda çıxış edib. O, tələbələrə iqtisadiyyat, İslam iqtisadiyyatı, maliyyənin əhəmiyyəti, İslam bankçılığı, maliyyə alətləri, müsəlman ölkələrində İslam maliyyəsinin işlənmə forması, İslam sığortası, borc, kredit, müqavilə kimi mövzular haqqında geniş məlumat verib.

AİI-nin Elm və İnnovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov “Quran qiraətinin mütəvatirliyi” mövzusunda çıxış edib. O, Qurani-Kərimin nazilolma mərhələləri, Qurani-Kərimin yazılması və əzbərlənməsi, Qurani-Kərimin kitablaşdırılması, qiraətlərin ortayaçıxma səbəbləri, yeddi hərf və digər məsələlər haqqında ətraflı danışıb.

“Quran-siyər münasibəti” mövzusunda çıxış edən AİI İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova “İslam, inanc, din, sivilizasiya” məfhumları, Qurana görə Peyğəmbərin müsəlmanlara, müsəlmanların Peyğəmbərə qarşı vəzifələri, siyər-Quran əlaqəsinin zəruriliyi, Peyğəmbər dövründə hökm sürən sosial-iqtisadi və siyasi mühit kimi əhəmiyyətli mövzulara toxunub.






Qeyd edək ki, bir həftə davam etmiş yay məktəbində xarici universitetlərin və ölkəmizin tanınmış ilahiyyatçılarının məruzələri dinlənilib.

* * *

Azərbaycan İlahiyyat İnstitutu və “İdrak” İctimai Birliyinin birgə təşkilatçılığı ilə “Biliklərarası inteqrasiya” mövzusunda baş tutan Yay məktəbi iyulun 10-da öz işini yekunlaşdırıb.

Bağlanış mərasimində çıxış edən AİI-nin Elm və İnnovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov Yay məktəbinin təşkilində əməyi olan hər kəsə təşəkkür edib. Bildirib ki, belə layihələr tələbələrin inkişafı, dünyagörüşlərinin və biliklərinin artırılması istiqamətində atılan mühüm addımlardır. Gənclərə tövsiyələrini bildirən prorektor vurğulayıb ki, gələcəyin ilahiyyatçılarından gözlədiyimiz onların yüksəkixtisaslı, Vətənini sevən və yad təsirlərdən qoruyan kadrlar kimi yetişmələridir.

AİI İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova çıxışında vurğulayıb ki, tələbələr mühazirələr dinləməklə yanaşı, Qəbələ rayonunda yerləşən abidələrlə də tanış olublar. Onlara bu imkanın yaradılması ölkəmizin multikultural mühiti ilə tanış olmaları baxımından mühüm amildir. E.Əzizova daha sonra bildirib ki, ali təhsil müəssisəsində tələbələrin biliklərinin artırılması, yüksəkixtisaslı kadrlar kimi yetişmələri üçün müxtəlif kurslar, seminarlar, yay və qış məktəbləri təşkil edilir.

Bağlanış mərasiminin sonunda tələbələrə sertifikatlar təqdim edilib.

Qeyd edək ki, bir həftə davam etmiş Yay məktəbində tələbələr xarici universitetlərin və ölkəmizin tanınmış ilahiyyatçılarının məruzələrini dinləyib, Qəbələ rayonunda yerləşən abidələrlə yaxından tanış olublar.

# AİL-nin müəllimi ixtisasartırma kursunda iştirak edib

Azərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müəllimi, f.f.d. Aliyə Mürsəlova 13 iyul 2023-cü il tarixində ixtisasartırma proqramında iştirak edib.

Kurs ABŞ-nin Konnektikut ştatının Nyu-Heyven şəhərində yerləşən, 1701-ci ildən fəaliyyət göstərən, səkkiz universitet şəbəkəsindən biri hesab edilən Yel (Yale) Universiteti tərəfindən təşkil edilmişdi.

"Qərb Xristianlığına səyahət: təqib edilən inancdan qlobal dinə qədər (200-1650)" mövzusunda onlayn formatda keçirilən kurs Yel İlahiyyat Məktəbi Tarix şöbəsinin "Kilsə tarixi" üzrə professoru Brüs Qordon (Bruce Gordon) tərəfindən tədris edilib.


Yale
COURSE CERTIFICATE
Aliya Samir Mursalova
A Journey through Western Christianity: from Persecuted Faith to Global Religion (200 - 1650)
coursera

# TİKA koordinatoru AİL-də



Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) koordinatoru Fatih Yılmaz 14 iyul 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib.

AİL-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent Mübariz Camalov qonağı ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. M.Camalov İnstitut haqqında geniş məlumat verərək bildirib ki, burada "İslamşünaslıq" və "Dinşünaslıq" ixtisasları üzrə tədris həyata keçirilir.

Prorektor daha sonra ali təhsil müəssisəsinin məqsəd və hədəfləri, yeni layihələri barədə geniş söhbət açıb.

TİKA koordinatoru Fatih Yılmaz AİL-də olmaqdan məmnunluğunu ifadə edib, Azərbaycanda həyata keçirdikləri bir sıra layihələr haqqında söhbət açıb. Bildirib ki, İnstitutla TİKA arasında qurulan münasibətlər gələcəkdə yeni layihələrin həyata keçirilməsi üçün başlanğıcdır.

Görüşdə birgə layihələrin baş tutması istiqamətində geniş müzakirələr aparılıb.

# Beynəlxalq elmi təlim keçirilib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Dinşünaslıq ekspertizası şöbəsinin baş məsləhətçisi Şəhriyar İsmiyev və Azərbaycan İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov 28 iyul 2023-cü il tarixində İordaniya Haşimilər Krallığı Vəqflər, İslam Məsələləri və Ziyarətgahları Nazirliyinin dəstəyi ilə dəvətçilərin hazırlanması, kvalifikasiyası və təlimi üzrə Kral II Abdulla adına İnstitutun təşkilatçılığı sayəsində paytaxt Ammanda keçirilən 44-cü beynəlxalq elmi təlimdə iştirak ediblər.

Beynəlxalq elmi təlim 20-27 iyul 2023-cü il tarixlərində baş tutub. Tədbirin açılış mərasimində Krallığın vəqflər, İslam məsələləri və ziyarətgahlar naziri, professor Məhəmməd Əhməd əl-Xəlayləh, Krallığın Baş müftisi Şeyx Əbdülkərim əl-Xəsavnəh və digər dövlət nümayəndələri iştitak ediblər.

İordaniya Haşimilər Krallığı tərəfindən 9 noyabr 2004-cü ildə bəyan edilmiş, Qurani-Kərim və Həzrət Peyğəmbərin hədislərinə əsaslanan, sülh, əmin-amanlıq, birlik, həmrəylik, mötədillik və digər vacibəhəmiyyətli məsələləri təbliğ edən "Amman mesajı"nın məzmununun izah edilməsinə həsr olunmuş təlimə 24 ölkədən 70 nümayəndə qatılıb.



# İkitərəfli əməkdaşlıq əlaqələri qurulur

Türkiyənin Ardahan Universitetinin beynəlxalq əlaqələr üzrə kooridantoru Doğan Saltaş 24 iyul 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib.

Aİİ-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent Mübariz Camalov qonaqlara ali təhsil müəssisəsinin yaranması və fəaliyyəti haqqında geniş məlumat verib. İnstitutun bakalavriat, magistratura və doktorantura pillələri üzrə tədris həyata keçirdiyini söyləyən M.Camalov vurğulayıb ki, Aİİ-də təhsil tamamilə ödənişsizdir.

Tədris zamanı bütün dinlər haqqında tələbələrə geniş məlumatlar verildiyini diqqətə çatdıran prorektor İnstitut müəllimlərinin öz sahələrinin peşəkar mütəxəssisləri olduqlarını bildirib.

Ardahan Universitetinin beynəlxalq əlaqələr üzrə kooridantoru



Doğan Saltaş təmsil etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verib. İkitərəfli əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını qeyd edən D.Saltaş daha sonra bildirib ki, "Erasmus+", "Mövlana" tipli proqramlar vasitəsilə tələbə, müəllim mübadiləsinin həyata keçirilməsi mümkündür.

Görüşdə hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; professor-müəllim heyəti və təhsilalanlar üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi kimi məsələlər müzakirə olunub.

# Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti AİI-də



Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti Ayman Matsyek 26 iyul 2023-cü il tarixində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunda olub.

AİI-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent Mübariz Camalov qonağa ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. M.Camalov İnstitutda təhsilin hər üç pilləsi üzrə tədris həyata keçirildiyini qeyd edib. O, daha sonra qonağa bildirib ki, AİI-də təhsil tamamilə ödənişsizdir. Tədris zamanı Azərbaycanda mövcud multikultural və tolerant mühit nəzərə alınaraq, müasir metodlardan istifadə olunur.

DQİDK-nın tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) icraçı direktor müavini Ceyhun Əliyev təmsil etdiyi qurum haqqında məlumat verib. Fondun tarixi, yaradılma məqsədi, fəaliyyət istiqamətləri barədə söhbət açıb.

Daha sonra Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti Ayman Matsyek təmsil etdiyi qurum haqqında geniş məlumat verib. Almaniyadakı dini vəziyyət haqqında söhbət açan qonaq müsəlmanların din xadimliyi məsələsinə toxunub. Qonaq Azərbaycandakı multikultural mühitin əhəmiyyətini vurğulayıb, bu təcrübənin öyrənilməsinin vacib olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti Ayman Matsyekin səfəri Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə baş tutub.

# AİI-də görüş



Türkiyə Cümhuriyyəti dəyanət işləri rəhbərinin müavini Səlim Argun və Türkiyənin Azərbaycandakı Səfirliyinin dini işlər üzrə müşaviri İhsan Açık 28 iyul 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunda olublar.

AİI-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent Mübariz Camalov qonağa ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Ali təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində təsis olunduğunu qeyd edib. Bildirib ki, İnstitut Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin bazasında yaradılıb.

M.Camalov İnstitutda təhsilin hər üç pilləsi üzrə tədris həyata keçirildiyini, bakalavr pilləsində "İslamşünaslıq" və "Dinşünaslıq" ixtisasları üzrə qəbul aparıldığını diqqətə çatdırıb.

O, daha sonra qonağa bildirib ki, AİI-də təhsil tamamilə ödənişsizdir. Prorektor ali təhsil müəssisəsində həyata keçirilən qəbul prosesi, İnstitutun tələbə kontingenti, həmçinin beynəlxalq əlaqələri haqqında da məlumat verib.

M.Camalov daha sonra bildirib ki, tədris prosesində müasir metodlardan istifadə olunmaqla, Azərbaycanda mövcud multikultural və tolerant mühit nəzərə alınaraq həyata keçirilir.

Türkiyə Cümhuriyyəti dəyanət işləri rəhbərinin müavini Səlim Argun AİI-yə fəaliyyətində, qarşısında duran məqsədlərinə çatmaqda uğurlar arzulayıb. Qardaş ölkə Azərbaycanda mövcud olan belə bir ali dini təhsil müəssisəsinin olduğundan məmnunluğunu ifadə edib. Təmsil etdiyi qurumla, eləcə də Türkiyə universitetləri ilə ali təhsil müəssisəsinin əməkdaşlıq əlaqələrinin qurulmasında əlindən gələni əsirgəməyəcəklərini diqqətə çatdırıb.

Sonda qonaqlar AİI-nin kitabxanasında İnstitutun nəşrləri, Kitabxana fondu ilə tanış olublar.

# Rektor Kərbəla hadisəsi ilə əlaqədar tədbirə qatılıb

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 31 iyul 2023-cü tarixində Türkiyədə Kərbəla hadisəsi ilə əlaqədar təşkil olunan mərasimlərdə iştirak edib. İstanbulda baş tutan tədbirlər Zeynəbiyyə Cami və Kültür Mərkəzi və Yahya Kamal Bayatlı Konfrans Mərkəzində keçirilib.

"İmam Hüseyn və Kərbəla" mövzusunu əhatə edən mərasimdə Türkiyə cəfərilərinin rəhbəri Səlahatdin Özgündüz, Türkiyə Böyük Millət Məclisinin İstanbul millət vəkili, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, digər millət vəkilləri, siyasi və ictimai xadimlər çıxış ediblər.

AİI rekroru Aqil Şirinov tədbirdə Kərbəla hadisəsinin azadlığı sevən və zülmə qarşı mübarizə aparan bütün insanlar üçün dəyər olduğunu vurğulayıb. A.Şirinov Kərbəla hadisəsindən götürüləcək ibrətlərə diqqət çəkərkən bildirib ki, hadisənin bizə öyrətdiyi cəhətlər haqqın, doğrunun yanında olmaq, ədaləti bərqərar etməkdir: "Həzrət Hüseynin və digər Kərbəla şəhidlərinin mübarizəsinin timsalında Aşura böyük bir şəhidlik məktəbi olmaqla yanaşı, ədalət, fədakarlıq, Haqqa sədaqətin təcəssümüdür", – deyə qeyd edib.

AİI rektoru ölkəmizin 44 günlük Vətən müharibəsində qanları bahasına torpaqlarımızı düşmən tapdağından azad edərək, canlarından keçmiş şəhidlərimizin də eyni amal uğrunda vuruşduqlarını, haqqın və ədalətin bərqərar olduğunu vurğulayıb: "Kərbəla bizə haqqın yanında olmağı öyrətdi, amma çox təəssüf ki, o zaman da, indi də zahirən haqqın yanında görünüb, zülmü, ədalətsizliyi dəstəkləyənlər var. Həmişə həqiqətin tərəfində olan qardaş Türkiyə xalqına haqq savaşımızda yanımızda olduğu üçün minnətdarlığımızı bildiririk".



# "İslamşünaslıq" ixtisasında müsahibə mərhələsi

Azərbaycan İlahiyyat İnstitutunda 1 avqust 2023-cü il tarixində III ixtisas qrupu üzrə bakalavr pilləsinin "İslamşünaslıq" ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsi başlayıb. Müsahibə avqustun 3-də yekunlaşıb.

Müsahibədən məqbul qiymət almış abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasını da seçiblər.

Komissiya Bakı şəhəri Məhəmməd Naxçıvani, 29 ünvanında – Azərbaycan İlahiyyat İnstitutunun inzibati binasında təşkil olunub.

Qeyd edək ki, abituriyentlərin dünyagörüşü səviyyələrinin və "İslamşünaslıq" ixtisasına maraqlarının müəyyənləşdirilməsi məqsədilə DİM tərəfindən Dini Psixoloji Komissiya (DPK) yaradılıb. Komissiyanın tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, ekspertlər, psixoloqlar, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan İlahiyyat İnstitutunun və DİM-in əməkdaşları daxil ediliblər.

Müsahibə zamanı abituriyentlərin ümumi dini bilikləri, İslamşünaslıq ixtisasına uyğunluqları, gələcəkdə din xadimi kimi fəaliyyət göstərməyə münasibətləri, insanlarla ünsiyyət bacarıqları, xitabət və natiqlik qabiliyyətləri qiymətləndirilir, psixoloji vəziyyətləri, yaradıcı təfəkkür imkanları yoxlanılıb.

Məlumat üçün bildiririk ki, Azərbaycan İlahiyyat İnstitutunda təhsil tam ödənişsizdir. Ali təhsil müəssisəsi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyət sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin edilməsi məqsədilə müasir təhsil standartları və müvafiq sahədə dünya təcrübəsi əsasında fəaliyyət göstərir. İnstitutda müasir sosial elmlərin metodları əsasında İslamla yanaşı, digər dünya dinlərinin inanc, ibadət, əxlaq sistemi və ictimai strukturları, həmçinin dini elmlərlə yanaşı, fəlsəfə, sosiologiya, psixologiya, multikulturalizm və digər sosial və humanitar elmlər də tədris olunur.

* * *

Azərbaycan İlahiyyat İnstitutunda III ixtisas qrupu üzrə bakalavr pilləsinin "İslamşünaslıq" ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsi başa çatıb. Müsahibə mər- hələsi 1-3 avqust 2023-cü il tarixdə keçirilib.

Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən yaradılan Dini Psixoloji Komissiya (DPK) üzrə qeydiyyatdan keçən 113 nəfərdən 52-si məqbul qiymət alıb. Müsahibədən məqbul qiymət almış abituriyentlər seçim zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasını da seçə biləcəklər.

Qeyd edək ki, DPK-nin tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, ekspertlər, psixoloqlar, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu və DİM-in əməkdaşları daxil ediliblər.

Müsahibə zamanı abituriyentlərin ümumi dini bilikləri, "İslamşünaslıq" ixtisasına uyğunluqları, gələcəkdə din xadimi kimi fəaliyyət göstərməyə münasibətləri, insanlarla ünsiyyət bacarıqları, xitabət və natiqlik qabiliyyətləri qiymətləndirilir, psixoloji vəziyyətləri, yaradıcı təfəkkür imkanları yoxlanılır.

# Stirlinq Fondunun nümayəndə heyəti AİI-də

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunda 5 sentyabr 2023-cü il tarixində ABŞ-nin Stirlinq Fondunun nümayəndə heyəti ilə görüş keçirilib.

AİI rektoru, dosent Aqil Şirinov "Şimali və Şərqi Qafqaz yəhudilərinin irsi və mədəniyyəti" mövzusunda keçirilən beynəlxalq elmi konfransın iştirakçılarından olan ABŞ-nin Stirling Fondunun prezidenti Edvard Rounun rəhbərlik etdiyi nümayəndə heyəti və İsa Məsihin son gün müqəddəsləri kilsəsinin Avropa üzrə Yetmişlər Kvorumunun nümayəndələri ilə görüşüb.

Rektor Aqil Şirinov qonaqlara ölkəmizdə mövcud olan birgəyaşayış ənənəsi, tolerantlıq mühiti barədə məlumat verib. Rektor Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını vurğulayaraq, Azərbaycan dövlətinin də ölkədəki ənənəvi dini qruplara daim qayğı ilə yanaşdığını vurğulayıb.

Ali təhsil müəssisəsinin rəhbəri AİI haqqında bəhs edərkən bildirib ki, tədris zamanı bütün dinlər haqqında tələbələrə geniş bilgilər verilir. Rektor İnstitut müəllimlərinin öz sahələrinin peşəkar mütəxəssisləri olduqlarını nəzərə çatdırıb.

A.Şirinov ölkəmizdə mövcud olan multikultural mühitin tanıdılmasında görülən işlər barədə danışarkən, burada yaşayan bütün dinlərin nümayəndələri ilə sıx əməkdaşlıq şəraitində çalışıldığını diqqətə çatdırıb.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən ABŞ-nin Stirling Fondunun prezidenti Edvard Rou Yuta ştatında yaşayan etnik azlıqlar barədə söhbət açıb, burada mövcud kilsə və sinaqoqların tarixindən bəhs edib. Bildirib ki, Azərbaycan multikulturalizm və tolerantlıq kimi humanist dəyərləri dünyada təbliğ edir və layiqincə tətbiq edir.

Görüş zamanı ABŞ-nin Brigham Yang Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.

# “Din araşdırmaları” jurnalının növbəti sayı nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutunun elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan “Din araşdırmaları” jurnalının X sayı dərc edilib.

İldə iki dəfə dərc olunan jurnalın yeni sayında 16 məqalə yer alıb. Din psixologiyası, din sosiologiyası, təfsir, kəlam, fəlsəfə, İslam hüququ və tarix kimi bölmələrdə yer alan elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilib. Jurnalda Azərbaycan, türk və ərəb dillərində məqalələr dərc olunub.

Jurnalın əsas məqsədi psixologiya və fəlsəfə üzrə, o cümlədən dinin tarixi, fəlsəfəsi, din sosiologiyası və din psixologiyası üzrə Azərbaycan, rus, ingilis, türk və ərəb dillərində hazırlanmış müstəqil tədqiqatları məqalə və resenziya kimi dərc edərək, beynəlxalq aləmdə bu istiqamətdə məlumatların, araşdırmaların artmasına töhfə verməkdir. “Din araşdırmaları” jurnalı qeyd edilən yöndə tədqiqat aparan alimlər, ilahiyyatçılar, dinşünaslar, fəlsəfəçilər, o cümlədən bu sahəyə marağı olan tələbələr, oxucular və qurumlar üçün nəzərdə tutulub.

“Din araşdırmaları” jurnalının redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Pakistan, Qazaxıstan, İran və İsveçrə kimi ölkələrdə fəaliyyət göstərən nüfuzlu alimlərdən ibarətdir. Bu alimlər tərəfindən jurnala daxil olan məqalələrə anonimlik qorunmaqla rəy verilir.

Məlumat üçün bildirək ki, “Din araşdırmaları” jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi istiqamətində bir sıra işlər görülür. Bununla bağlı İnstitut tərəfindən müasir standartlara, beynəlxalq jurnallarda məqalələrin yazılması və yayımlanması tələblərinə uyğun olaraq jurnalın rəsmi internet saytı hazırlanıb və artıq fəaliyyət göstərir. Jurnalın növbəti sayından etibarən, alimlər məqalələrini rəsmi internet saytı vasitəsilə göndərəcək və araşdırmalarının statuslarını saytda yaratdıqları profil vasitəsilə izləyə biləcəklər.




Qeyd edək ki, jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb.

“Din araşdırmaları” jurnalı 2020-ci ildən AAK tərəfindən fəlsəfə və psixologiya üzrə elmi məqalələrin dərc olunması tövsiyə olunan dövri elmi nəşrlərin siyahısına daxil edilib.

# Boş yerlərə tələbə qəbulu elan edilib

Azərbaycan İlahiyyat İnstitutunda 2023/2024-cü tədris ili üçün “İslamşünaslıq” ixtisasına boş qalan yerlərə tələbə qəbulu elan edilib.

Bakalavriat pilləsinin “İslamşünaslıq” ixtisasına boş qalan yerlərə qəbul olmaq istəyən abituriyentlər üçün 6 sentyabr 2023-cü il tarixində III ixtisas qrupu üzrə müsahibə mərhələsi keçirilib. Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən yaradılan Dini Psixoloji Komissiya (DPK) üzrə 1-4 sentyabr 2023-cü il tarixlərində qeydiyyatdan keçən 23 nəfərdən 12-si “məqbul” qiymət alıb.

Məlumat üçün bildirək ki, 2023/2024-cü tədris ili üçün ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə qəbul olmaq istəyən abituriyentlərin ixtisas seçimləri sentyabrın 4-dən 9-dək aparılıb. “İslamşünaslıq” ixtisasını seçmiş abituriyentlər DPK-nın müsahibəsində iştirak edib, “məqbul” alanlar elektron qaydada https://eservices.dim.gov.az/ erizebak/ixtisas2/?frm=egov1 ixtisas seçimi edib ərizələrini təsdiq etdiriblər.

Qeyd edək ki, müsahibədə III ixtisas qrupunu seçmiş və müsabiqə şərtlərinə əsasən ümumi balı 150,



o cümlədən qəbul imtahanının II mərhələsi üzrə balı minimum 50 olan abituriyentlər iştirak ediblər.

Müsahibədə abituriyentin dünyagörüşü və dini bilikləri, dini baxışları və dünyəvilik anlayışı, psixoloji parametrlərinin İslamşünaslıq ixtisasına uyğunluğu, tolerantlıq və multikulturalizm təsəvvürləri yoxlanılıb.

Üçüncü ixtisas qrupunun “İslamşünaslıq” ixtisası üzrə müsabiqə abituriyentin qəbul imtahanında (iki mərhələnin nəticəsində) topladığı ümumi bal əsasında aparılıb.

# Laçın Şəhəri Günü tədbiri

Azərbaycan İlahiyyat İnstitutunda 26 Avqust – Laçın Şəhəri Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Aİİ-nin tələbələri və əməkdaşları iştirak ediblər.

Əvvəlcə Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib.

Aİİ rektoru, dosent Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, cənab Prezident İlham Əliyevin Sərəncamı ilə yeni təsis olunan Laçın Şəhəri Günü münasibətilə hamını təbrik edib. Ermənistanın təcavüzü nəticəsində 30 ilə yaxın müddətdə işğal altında qalmış tarixi torpaqlarımızın cənab Prezident İlham Əliyevin layiqli siyasəti və qəhrəman əsgərlərimizin səyi nəticəsində 44 günlük Vətən müharibəsində işğaldan azad olunduğunu xüsusi vurğulayan ali təhsil müəssisəsinin rəhbəri şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayıb. Zəfərə aparan hər bir günün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığnı söyləyən A.Şirinov Prezidentin Sərəncamı ilə işğaldan azad olunmuş ərazilər üzrə şəhər günlərinin təsis edilməsinin mühüm bir hadisə olduğunu vurğulayıb.

Rektor daha sonra qeyd edib ki, işğal dövründə ermənilər tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran olunub, mədəni irsimizə böyük zərbə vurulub, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz yerlə-yeksan edilib. Ərazilərimizin görünməmiş vandalizmə məruz qaldığını təəssüflə deyən rektor hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulduğunu, torpaqlarımızın minalardan təmizləndiyini, genişmiqyaslı bərpa və yenidənqurma işlərinin sürətlə aparıldığını bildirib.



Rektor A.Şirinov Laçın və Füzuli şəhərlərinə, Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinə məcburi köçkünlərin qayıdışının artıq başladığını və bu köçün davam etdiyini diqqətə çatdırıb.

Aİİ rəhbəri Laçın şəhərinin yaranması, onun əlverişli coğrafi mövqedə yerləşməsi, tarixboyu bu ərazidə insanların məskunlaşması barədə ətraflı məlumat verib. O, həmçinin Laçının tarixi şəxsiyyətləri barədə də ətraflı bəhs edərək, onların Azərbaycanın mədəni-dini sahəyə töhfələrini vurğulayıb.

Tədbir maraqlı müzakirələrlə davam edib.

# Elmi konfrans materialları çap olunub

Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə 8 sentyabr 2023-cü il tarixində "Müasir dünyada din təhsili" mövzusunda keçirilən respublika elmi konfransının materialları çap olunub.

Kitabda filologiya elmləri doktoru, professor Sakit Hüseynovun, ilahiyyat üzrə fəlsəfə doktoru, millət vəkili Ceyhun Məmmədovun, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Mirniyaz Mürsəlovun, sosiologiya üzrə fəlsəfə doktoru, dosent Asəf Qənbərovun, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Məmmədəli Babaşlının, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Elvüsal Məmmədovun və digər tanınmış alimlərin din təhsilinə, dünyada din təhsili modellərinə, Azərbaycanda mövcud dini təhsilə aid məqalələri yer alıb.

Aİİ rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Aqil Şirinov konfrans materiallarına yazdığı Ön sözdə qeyd edib ki, müasir dövrümüzdə dinin əsas prinsiplərinin cəmiyyətə doğru şəkildə çatdırılması, həmçinin dövlət və milli təhlükəsizlik baxımından din təhsili böyük əhəmiyyət kəsb edir. O qeyd edib ki, ilahiyyatın düzgün şəkildə tədris edilməsi dinin özünü təhriflərdən qoruyur, milli-mənəvi birliyi təmin edir, dinin cəmiyyətdəki rolunu artırır, həmçinin insanları radikal dini tendensiyalardan sığortalayır.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu yarandığı gündən etibarən, düzgün metodlara əsaslanan din təhsilini həyata keçirməyi, cəmiyyətin dini doğru anlamasını və öyrənməsini təmin etməyi başlıca məqsəd kimi qəbul edib. Bu istiqamətdə Aİİ-nin təşkilatçılığı ilə mütəmadi olaraq müxtəlif seminarlar, "dəyirmi masa"lar və




konfranslar təşkil edilir. Aİİ-nin təşkilatçılığı ilə keçirilən "Müasir dünyada din təhsili" respublika elmi konfransının ölkəmizin bu sahədəki qabaqcıl mütəxəssisləri din təhsilinin müxtəlif aspektlərini müzakirə obyektinə çevirən məruzələrlə çıxış ediblər.

# Yeni tədris ilinin ilk iclası

Azərbaycan İlahiyyat İnstitutunda yeni tədris ilinin başlanması münasibətilə 21 sentyabr 2023-cü il tarixində iclas keçirilib.

Öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib.

AİI rektoru, dosent Aqil Şirinov yeni tədris ilinin başlanması münasibətilə ali təhsil müəssisəsinin kollektivini təbrik edib, işlərində uğurlar arzulayıb. Rektor qarşıda duran hədəf və məqsədlər barədə danışıb.

A.Şirinov ali təhsil müəssisəsində təhsilalanlar üçün yaradılan şəraitdən bəhs edib. Bildirib ki, tədris prosesi zamanı, eləcə də dərsdənkənar məşğələlərdə müəllimlər tələbələrin savadlanması, elmi potensiallarının yüksəldilməsi üçün səylə çalışmalı, onların Vətənə, xalqa xeyirli, bilikli, zəngindünyagörüşlü mütəxəssislər kimi yetişməsi yönündə bacarıqlarını əsirgəməməlidirlər.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov AİI-nin Magistratura və doktorantura şöbəsinin, Mətbuat və Beynəlxalq əlaqələr bölmələrinin il ərzində gördüyü işlər, qarşıda duran hədəflər barədə geniş məlumat verib.

M.Mürsəlov dərslik və kitabların nəşri məsələlərinə də toxunub. "Din araşdırmaları" jurnalının növbəti saydan etibarən, elektron formatda yayımlanacağını vurğulayıb. Jurnalın rəsmi internet saytı müasir standartlara cavab verir, həmçinin beynəlxalq jurnallarda məqalələrin yazılması və yayımlanması tələblərinə uyğun olaraq hazırlanıb.

Prorektor İlahiyyat İnstitutunun xarici ölkə universitetləri ilə əlaqələrin qurulması üçün səylə çalışdığını vurğulayıb. Tələbələrin birsemestrlik xarici ali təhsil müəssisələrində təhsillərini davam etdirdiklərini və uğur qazandıqlarını diqqətə çatdırıb. Prorektor bildirib ki, yeni tədris ilində də təhsilalanlar üçün lazımi şərait yaradılacaq.

AİI İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova ötən semestrin yay imtahan sessiyası barədə məlumat verib. Ən yüksək nəticə göstərən tələbələrə ayrılacaq təqaüdləri diqqətə çatdırıb.

E.Əzizova tələbələrin elmi potensiallarının artırılması, asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün əlavə kurslar barədə söhbət açıb. Təhsilalanlar üçün bu tədris ilində də dil və peşə hazırlığı kurslarının keçiriləcəyini qeyd edib.

Tədbir qarşıda duran məqsəd, hədəf və vəzifələrin müzakirəsi ilə davam edib.

# Bilik Günü münasibətilə tədbir

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 15 sentyabr 2023-cü il tarixində I kurs tələbələri ilə görüşüb.

Öncə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

AİI rəhbəri Aqil Şirinov I kurs tələbələrini yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar diləyib. Rektor qeyd edib ki, tələbələr təhsil aldıqları illəri səmərəli keçirsələr, elmin, biliyin faydasını dərk etsələr, öz işlərinin peşəkarları olacaqlar.

İnstitut rəhbəri vurğulayıb ki, anadan olmasının 100 illik yubileyini qeyd etdiyimiz ümummilli lider Heydər Əliyev hər zaman gənc nəslin sağlam böyüməsinə, təhsilinə, həyatda layiqli yer tutmasına qayğı və diqqətlə yanaşmışdır.

Aqil Şirinov daha sonra AİI-də tələbələr üçün yaradılmış şəraitdən, təhsilin səviyyəsindən danışıb, tələbə-müəllim münasibətlərinə toxunub. Bildirib ki, yeni tədris ilində tələbələr dərslərindən əlavə, müxtəlif əlavə pulsuz kurslarda da iştirak edə biləcəklər; ərəb və ingilis dilləri, həmçinin peşə hazırlığı kurslarını qeyd etmək olar.

Ali təhsil müəssisəsi tərəfindən təşkil olunan yay və qış məktəbləri barədə söhbət açan Aqil Şirinov qeyd edib ki, semestr ərzində müvəffəqiyyət göstəricisi yüksək olan tələbələr bu layihələrdə iştirak edib, ölkəmizin müxtəlif regionları ilə tanış olmaq, elmi seminarlarda iştirak etmək imkanı qazanacaqlar.

Rektor bildirib ki, İlahiyyat İnstitutu xarici ölkə universitetləri ilə əlaqələrin qurulması üçün səylə çalışır. Tələbələr əməkdaşlıq protokolları, "Erasmus+", "Mövlana" proqramları vasitəsilə müxtəlif ölkə universitetlərində təhsillərini davam etdirə bilərlər.

AİI rəhbəri, həmçinin semestr ərzində ən yüksək göstəricilərə malik tələbələrə veriləcək təqaüdlər barədə də danışıb. Bildirib ki, tələbələr təhsil aldıqları müddətdə təqaüdlə təmin olunurlar. "Dinşünaslıq" ixtisası üzrə təhsil alan, semestr ərzində yüksək göstəricilərə malik olan 1 (bir) tələbə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təsis etdiyi, Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən ödənilən – ümummilli lider Heydər Əliyev adına təqaüddən; "İslamşünaslıq" ixtisası üzrə təhsil alan, yüksək göstəricilərə malik olan 1 (bir) tələbə Qafqaz Müsəlmanları İdarəsinin təsis etdiyi Şeyxülislam təqaüdündən; yüksək göstəricilərə malik olan 3 (üç) tələbə akademik Vasim Məmmədəliyev adına təqaüddən istifadə edəcək. Həmçinin MDTF-nin tələbələrin sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə ayırdığı maddi yardımdan da bəzi tələbələr yararlana biləcəklər.

Rektor, həmçinin vurğulayıb ki, tələbələr tədris ili ərzində pulsuz kitab, ödənişsiz yemək və digər xərclərlə də təmin olunurlar.

Sonda AİI-yə yüksək balla qəbul olan tələbələrə mükafatlar təqdim edilib.

# Polşa müftisi Aİİ-də



Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanova və Polşa Müsəlmanları İttifaqının sədri, müfti Tomaş Mişkeviç 20 sentyabr 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunda olublar.

Aİİ rektoru, dosent Aqil Şirinov ali təhsil müəssisəsinin fəaliyyəti, hədəfləri və məqsədləri barədə qonaqlara geniş məlumat verib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində İnstitutun təsis olunduğunu qeyd edib.

Aqil Şirinov müəssisədə həyata keçirilən qəbul prosesi, İnstitutun tələbə kontingenti, həmçinin beynəlxalq əlaqələri haqqında da məlumat verib. Qeyd edib ki, Aİİ-də təhsilin hər üç pilləsi üzrə yüksək səviyyəli tədris həyata keçirilir. İnstitutda təhsilin tamamilə ödənişsiz olduğunu vurğulayan rektor bildirib ki, bakalavr pilləsində "İslamşünaslıq" və "Dinşünaslıq" ixtisasları üzrə qəbul həyata keçirilir.

Rektor tədris prosesində müasir metodlardan istifadə olunduğunu, Azərbaycanda mövcud multikultural və tolerant mühitin nəzərə alındığını diqqətə çatdırıb.

Aqil Şirinov daha sonra Azərbaycanın haqq mübarizəsi olan 44 günlük Vətən müharibəsinə diqqət çəkib. Bildirib ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu əsrin az qala üçdəbirini əhatə edən işğala 44 gün ərzində son qoydu və ölkənin ərazi bütövlüyü bərpa olundu. Erməni vandallarının tarixi abidələrimizə, məscidlərimizə qarşı törətdikləri cinayət əməlləri haqqında bəhs edən rektor bildirib ki, bu əməllər bütövlükdə islami dəyərlərinə qarşı yönəldilib.

Polşa Müsəlmanları İttifaqının sədri, müfti Tomaş Mişkeviç Aİİ-yə fəaliyyətində, qarşısında duran məqsədlərinə çatmasında uğurlar arzulayıb, həmçinin Azərbaycanda belə bir ali dini təhsil müəssisəsinin mövcud olmasından məmnunluğunu ifadə edib. Tomaş Mişkeviç təmsil etdiyi qurumla, eləcə də Polşa universitetlərinin ilahiyyat fakültələri ilə ali təhsil müəssisəsinin əməkdaşlıq əlaqələrinin qurulmasında əlindən gələni əsirgəməyəcəklərini diqqətə çatdırıb.

Sonda qonaqlar Aİİ-nin auditoriyaları, İnstitutun Kitabxana fondu ilə tanış olublar.

# İlahiyyat İnstitutunda görüş





Türkiyənin Yozqat Bozok Universitetinin prorektoru, professor Güngör Yılmaz və ali təhsil müəssisəsinin TÖMER müdiri, dr. Volkan Demirel 29 sentyabr 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunun qonağı olublar.

Aİİ rektoru, dosent Aqil Şirinov qonaqları salamlayaraq, onları İnstitutda görməkdən məmnun olduğunu bildirib. İlahiyyat İnstitutunun fəaliyyəti haqqında məlumat verən rektor ali təhsil müəssisəsinin məqsəd və vəzifələri, hədəfləri haqqında ətraflı bəhs edib. Aİİ-nin beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Türkiyənin Yozqat Bozok Universitetinin rektoru Ahmet Karadağ təşəkkürünü bildirərək, İlahiyyat İnstitutu ilə əməkdaşlığın hər iki tərəf üçün faydalı və maraqlı olacağını diqqətə çatdırıb. İki ali təhsil müəssisəsi arasında imzalanan Əməkdaşlıq Protokolu əsasında həyata keçirilə biləcək layihələri diqqətə çatdırıb.

Qeyd edək ki, Protokolda hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; professor-müəllim heyəti və təhsilalanlar üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi nəzərdə tutulur.

# Anım Günü tədbiri



Azərbaycan İlahiyyat İnstitutunda 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib.

Öncə Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra AİI-nin IV kurs tələbəsi Əmrah Eminov tərəfindən şəhidlərimizin ruhuna Quran tilavəti təqdim edilib.

AİI rektoru, dosent Aqil Şirinov Anım Günü tədbirində çıxış edərək, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad olunan torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib.

Azərbaycanın tarixboyu başına gələn müsibətlərdən, bəlalardan şərəflə çıxdığını qeyd edən rektor bu sınaqda da Vətənimizin üzüağ olduğunu, Qarabağı erməni vandallarından geri aldığımızı vurğulayıb: "Vətənimizin igid oğulları ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı azad etdilər. Şəhidlərimizin ruhu şaddır, Qarabağ azaddır! Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan öz suverenliyini tam təmin edib. Bu, dövlətimizin uğurlu və uzaqgörən siyasətinin nəticəsidir".

Azərbaycan Televiziyası İctimai-siyasi proqramlar studiyası Tarix şöbəsinin rəisi, tarix üzə fəlsəfə doktoru Mahir Qəribov çıxış edərək, "Tarixin izi ilə" layihəsi çərçivəsində hazırlanmış, müəllifi olduğu 27 Sentyabr – Anım Gününə həsr olunmuş film haqqında söhbət açıb. M.Qəribov 44 günlük Vətən müharibəsinin şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarının özlərindən sonra bizə Vətən boyda əmanət qoyub-getdiklərini qeyd edib. O vurğulayıb ki, onlar canlarını Vətən uğrunda fəda edərək, qanları, canları bahasına torpaqlarımızı azad ediblər. Biz də müqəddəs dəyərlərimizə sahib çıxmalıyıq.

Daha sonra 44 günlük Vətən müharibəsi şəhidi, mayor Azər Mikayılovun qardaşı Anar Mikayılov çıxış edib. Anar Mikayılov şəhidin həyat yolundan, hərbi əməliyyatlar zamanı göstərdiyi şücaətlərdən bəhs edib.

Tədbirdə Azərbaycan Televiziyasının "Tarixin izi ilə" layihəsi çərçivəsində hazırlanmış 27 Sentyabr – Anım Gününə həsr olunmuş film nümayiş etdirilib.

# Rektor müsabiqə iştirakçıları ilə görüşüb

Azərbayan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 9 oktyabr 2023-cü il tarixində Rusiya İslam İnstitutunun təşkilatçılığı ilə Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində keçirilən XVI ümum-Rusiya Olimpiadasında AİI-ni təmsil etmiş tələbələrlə görüşüb.

Rektor yarışmada İnstitutu layiqincə təmsil etdiklərinə görə tələbələrə təşəkkürünü bildirib, təhsilalanlara bundan sonra da lazımi şəraitin yaradılacağını, onların elmi axtarışlara sövq edilməsi, bilikli, bacarıqlı mütəxəssislər kimi yetişmələri üçün İnstitutun bütün imkanlardan istifadə edəcəyini vurğulayıb.

Tələbələr yarışma haqqında təəssüratlarını bölüşüblər, onlara göstərilən diqqətə və dəstəyə görə İnstitut rektoruna təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, sözügedən beynəlxalq tədbirə Azərbaycan İlahiyyat İnstitutundan münsif qismində – İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazov; iştirakçı qismində – IV kurs tələbəsi Peyman Xəlilov, III kurs tələbələri Rauf İbrahimxəlilov, Çərkəz Şahbazov və Zeynəb Xəlilli qatılıblar.

İştirakçılar İslam hüququ, əqaid və ərəb dili istiqamətləri üzrə sualları cavablandırıblar. İlahiyyat İnstitutunun tələbələri fəallıqları ilə seçiliblər.

AİI-nin tələbəsi Zeynəb Xəlilli müsabiqədə uğurlu iştirakına görə mükafatlandırılıb.

# *Tələbələrimiz beynəlxalq müsabiqədə*



Rusiya İslam İnstitutunun təşkilatçılığı ilə Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində 29 sentyabr 2023-cü il tarixində İslam təhsil müəssisələri tələbələrinin XVI ümum-Rusiya Olimpiadası keçirilib.

Sözügedən beynəlxalq tədbirə Azərbaycan İlahiyyat İnstitutundan münsif qismində – İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazov, iştirakçı qismində – IV kurs tələbəsi Peyman Xəlilov, III kurs tələbələri Rauf İbrahimxəlilov, Çərkəz Şahbazov və Zeynəb Xəlilli qatılıblar.

İştirakçılar İslam hüququ, əqaid və ərəb dili istiqamətləri üzrə sualları cavablandırıblar. İlahiyyat İnstitutunun tələbələri aktivliyi ilə seçiliblər. AİI tələbəsi Zeynəb Xəlilli müsabiqədə uğurlu iştirakına görə mükafatlandırılıb.

# Bilal Ərdoğan Aİİ-ni ziyarət edib



Dünya Etnospor Konfederasiyasının prezidenti, Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın oğlu Nəcməddin Bilal Ərdoğan 28 sentyabr 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib. Qonaqla İnstitut kollektivinin görüşü təşkil olunub.

Görüşdə Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin dövlət himnləri səsləndirilib.

Qarabağ və Çanaqqala şəhidlərinin ruhlarına Dəyanət İşləri Başqanlığı Müshəf Tədqiqləri və Qiraət Şurasının üzvü Fatih Okumuş tərəfindən Quran tilavəti təqdim olunub.

Açılış nitqi ilə çıxış edən Aİİ rektoru, dosent Aqil Şirinov Bilal Ərdoğanı İnstitutda görməkdən məmnun olduğunu bildirib, ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Türkiyə–Azərbaycan qardaşlığının əbədi olduğunu diqqətə çatdıran A.Şirinov vurğulayıb ki, tarixin bütün dövrlərində bunun şahidi oluruq: "Çanaqqalada azərbaycanlı gənclərin Anadolu gəncləri ilə birlikdə qələbə qazandıqlarını, Nuru Paşanın döyüşçüləri ilə birlikdə 1918-ci ildə Azərbaycanın köməyinə gəldiyini görürük".

A.Şirinov Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi zamanında da qardaş Türkiyə xalqına və dövlətinə göstərdikləri mənəvi dəstəyə görə dərin minnətdarlığını bildirib. Rektor, həmçinin Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Türkiyə Cümhurbaşqanı cənab Rəcəb Tayyib Ərdoğanın dostluğunun dövlətlərimiz arasındakı əlaqələrin inkişafında əvəzsiz rolundan bəhs edib.

Daha sonra Nəcməddin Bilal Ərdoğan Türkiyənin Azərbaycandakı Səfirliyinin dini işlər üzrə müşaviri İhsan Açık bəyin moderatorluğu ilə tələbələrin suallarını cavablandırıb.

Bilal Ərdoğan vurğulayıb ki, ilahiyyat sahəsində savadlı, bilikli kadrlara hər zaman ehtiyac vardır. İctimai elmlərin və xüsusən də ilahiyyat elminin əhəmiyyətinə diqqət çəkən qonaq qeyd edib ki, müasir dünyanın mənəvi problemlərinin həlli sahəsində səylə çalışacaq ziyalılara, ilahiyyatçılara, mütəfəkkirlərə, cəmiyyətin önündə gedən insanlara ehtiyacımız var. O, XXI əsrdə islami elmlərdə dərin araşdırma aparacaq ziyalıların yetişdirilməsinin zəruri olduğunu vurğulayıb.

Bilal Ərdoğan Azərbaycan İlahiyyat İnstitutunun tələbələrinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O, bildirib ki, Azərbaycanın uğurlu gələcəyi naminə səylə çalışmalı, savadlı, gənc mütəxəssislər kimi formalaşmalıdırlar.

# Cəbrayıl Şəhəri Gününə həsr olunmuş tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 4 Oktyabr – Cəbrayıl Şəhəri Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Dövlət Himni səsləndirilib.

Aİİ rektoru, dosent Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, cənab Prezident İlham Əliyevin Sərəncamı ilə yeni təsis olunan Cəbrayıl Şəhəri Günü münasibətilə hamını təbrik edib. A.Şirinov bildirib ki, 4 Oktyabr – Cəbrayıl şəhərinin Ermənistan silahlı qüvvələrinin 27 illik işğalından azad edildiyi gündür. Prezident cənab İlham Əliyevin uzaqgörən siyasəti, qətiyyətli addımı nəticəsində, Vətənimizin igid oğullarının şücaəti ilə torpaqlarımız düşmən tapdağından azad olundu. Zəfərə aparan hər bir günün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığnı söyləyən A.Şirinov Prezidentin Sərəncamı ilə işğaldan azad olunmuş ərazilər üzrə şəhər günlərinin təsis edilməsinin mühüm hadisə olduğunu vurğulayıb. Rektor Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayıb.

Aİİ rektoru Cəbrayıl rayonunun milli-mədəni abidələrindən də söhbət açıb: "Cəbrayıl rayonu ərazisi maddi və mədəni abidələrlə zəngindir. Bunlardan Dağtumas kəndi yaxınlığında yerləşən "Divlər sarayı" mağarasını; Qalacıq kəndindəki "Məscid təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanlarını; Diri dağındakı Mazannənə, Mərmər nənə məqbərələri kimi arxeoloji tikililəri; Dağtumas kəndindəki "Başıkəsik günbəz"i; Sirik kəndindəki qalanı; Diri dağındakı Qız qalasını; Xudafərin körpülərini misal göstərmək mümkündür".

Milli Məclisin Cəbrayıl–Qubadlı seçki dairəsi üzrə deputatı Ceyhun Məmmədov çıxış edərək, Cəbrayıl rayonu haqqında xatirələrini bölüşüb. İşğal edildikdən sonra şəhərin necə viran olunduğunu diqqətə çatdıran deputat bildirib ki, azadlığına qovuşan Cəbrayılda, həmçinin digər rayonlarımızda yaşayış binaları, inzibati binalar inşa olunur. Quruculuq işləri cənab Prezidentin xüsusi diqqəti altındadır. Cəbrayıl və işğaldan azad olunmuş digər rayonlarımız dirçəliş dövrünü yaşayır. Bütün işlər planlaşdırılmış qaydada həyata keçirilir. Bütün keçmiş məcburi köçkünlər səbirsizliklə 30 il ərzində Ermənistan tərəfindən məhrum edilmiş torpaqların azad edildiyi günü gözləyirdilər ki, onlar öz doğma yurdlarına qayıtsınlar. Şükürlər olsun, arzular reallaşır.

Tədbirdə "Azad Azərbaycan" Televiziyasının istehsalı olan "30 ildən sonra doğulduğu torpağa dönənlərin hekayəsi – "Biz qayıtdıq, Cəbrayıl" filminin birinci hissəsi nümayiş olunub.

# "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda II beynəlxalq simpozium

Türkiyədə Kırıkkale Universitetinin İslam elmləri fakültəsi, İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzi, Azərbaycan İlahiyyat İnstitutu, İndoneziya Sunan Kalijaga Yogyakarta Dövlət İslam Universiteti və Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) birgə təşkilatçılığı ilə 6 oktyabr 2023-cü il tarixində "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda II beynəlxalq simpoziumun açılış mərasimi baş tutub.

Açılış mərasimində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı, Kırıkkale bələdiyyə sədrinin müavini Halil Danacı, Kırıkkale Universitetinin rektoru, prof., dr. Ersan Aslan və prorektoru prof., dr. Mehmet Başalan, Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dos. Aqil Şirinov və prorektoru, dos. Mirniyaz Mürsəlov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, i.f.d. Mehman İsmayılov və onun müavini Hatəm Gülməmmədov, Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, prof., dr. Mövlud Erten, İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzinin prezidenti, prof., dr. Zekeriya Akman və digərləri iştirak ediblər.

Açılış mərasimində Türkiyə və Azərbaycan şəhidlərinin xatirələri bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin dövlət himnləri səsləndirilib.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin tələbəsi Məhəmməd Əmin Coşkunun Qurani-Kərim tilavəti ilə tədbir davam edib.

Simpoziumda açılış nitqi ilə çıxış edən tədbirin Təşkilat Komitəsinin sədri, prof., dr. Şahin Əhmədoğlu deyib: "Fərqli dinlərə, dillərə, irqlərə, rənglərə və etnik quruluşa sahib insanlar dünyada birgə yaşayırlar. Müxtəlif coğrafiyalarda yaşayan insanlar, əsasən, cəmiyyətin onlara aşıladığı həyatı bilir və mənimsəyirlər. İslam dininin məqsədi ağıldan istifadə edən, qanuna və hüquqlara əməl edən, ədalətli, gözəltərbiyəli, fikir azadlığına və yaşamaq hüququna hörmət göstərən, mərhəmətli, bağışlayan insan yetişdirməkdir". Ş.Əhmədoğlu daha sonra vurğulayıb ki, İslam sivilizasiyasının bir parçası olan Türkiyə müsəlman ölkələri arasında strateji mövqeyinə görə mühüm missiyaya malikdir. Məruzəçi belə bir tədbirin Türkiyə ilə dərin tarixi və mədəni əlaqələrə malik olan qardaş Azərbaycanla birlikdə keçirilməsini məqsədəuyğun hesab etdiyini vurğulayıb. Qeyd edib ki, simpoziumda 14 ölkədən və Türkiyənin müxtəlif universitetlərindən 100-dən artıq alim məruzə ilə çıxış edəcəkdir.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, prof. Mövlud Erten bildirib ki, texnologiyanın inkişafı ilə dünya kiçilmişdir: "Dövlətlər və qitələr arasındakı sərhədlər indi yalnız fizikidir. Ona görə də "birgəyaşayış" dediyimiz ifadə fiziki ölçülərini çoxdan aşmış, onun paradiqması da dəyişmişdir. Məhz bu kontekstdə Rəbbimizin "Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq", – mesajı üzərində daha dərindən düşünməliyik.

Mövlud Erten daha sonra nəzərə çatdırıb ki, təcrübə ilə sübut olunur – cəmiyyətlər öz gələcəklərini düşünüb bu anlayışla hərəkət etsələr, möhtəşəm və tarixi cəmiyyətlər yarana bilər. İslam sivilizasiyası tarixdə birgəyaşamağın qaydasını, qanununu və modelini ən gözəl şəkildə ortaya qoymuş nümunədir. Birlikdəyaşamanın ilk nümunələrini Quranda, Həzrət Peyğəmbərin dövründə müşahidə edirik. Müsəlmanlar bu nümunələrə əsaslanaraq, tarixdə misli görünməmiş gözəl əməllər və birlikdəyaşama nümunələrini ortaya qoymuşlar.

Tədbirdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Qarabağ müharibəsində Azərbaycana verdikləri dəstəyə görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və türk xalqına minnətdarlıq edib, hər iki ölkə şəhidlərinə Allahdan rəhmət diləyib.

Azərbaycanda müxtəlif dinlərin, fərqli etnik qrupların yüzillərboyu sülh şəraitində, çətin anlarda bir-birlərinə dəstək verərək yaşadıqlarını müasir və tarixi nümunələrlə izah edən Səyyad Salahlı Azərbaycanda multikultural həyatın 23 müxtəlif ölkədə akademik şəkildə öyrənildiyini və mühazirələrdə izah edildiyini vurğulayıb.

Sədr müavini daha sonra deyib ki, İslam ölkələrində tarixboyu müxtəlif din və inanclardan olan insanlar sülh şəraitində yaşayıblar. İslam dünyasında fərqlidüşüncəli insanların bir yerdə yaşamalarına, fikirayrılıqlarına hörmətlə yanaşılmasına böyük əhəmiyyət verilir.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dos. Aqil Şirinov tədbir təşkilatçılarına təşəkkürünü bildirib və əlavə edib: "Bildiyiniz kimi, Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti, qətiyyətli addımı nəticəsində, Vətənimizin igid oğullarının şücaəti ilə torpaqlarımız düşmən tapdağından azad olundu. Hazırda Qarabağın hər yerində Azərbaycan bayraqları dalğalanır. Millətimiz bu qələbədə hər zaman bizimlə olan cənab Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə dövlətinə və xalqına minnətdardır. Çanaqqaladan Qarabağadək Türkiyəmizin və Azərbaycanımızın bütün şəhidlərini rəhmətlə yad edirəm", – deyə o, qeyd edib.

A.Şirinov vurğulayıb ki, Qurani-Kərimin bir yerində birgəyaşamanın nəzəri prinsiplərinə rast gəlirik. İslam mədəniyyətinə nəzər saldıqda, beytül-hikmənin Abbasilər dövründə qurulduğunu görürük.

Beytül-hikmənin əsas vəzifələrindən biri də İslam sivilizasiyalarından başqa, elmi və fəlsəfi kitabları, xüsusən də qədim yunan mədəniyyətinə aid kitabları ərəb dilinə tərcümə etmək idi. Bundan əlavə, Əndəlüs nümunəsi ən parlaq

amillərdən biridir. Əndəlüs müsəlmanlarla yanaşı, yəhudi və xristianların da İslam mədəniyyətinə töhfə verdiyi bir məkandır. Bu gün İslam dünyasında məzhəblərin toqquşmasını müşahidə edirik. Buna əsas səbəb, məzhəb kimliyini dini kimlikdən üstün tutmaqdır. Məzhəblərin olması çox təbiidir, amma dini kimlikdən üstün tutmaq yanlışlıqdır. Bunlar birgəyaşayış ənənəmiz qarşısında duran ən mühüm problemlərdən biridir. Yaxşı nümunələrimizi də qeyd etməliyik: Türkiyə və Azərbaycan buna ən gözəl misaldır: “Türkiyədə müxtəlif dini və etnik kimliklər bir yerdə yaşayır və onlar Osmanlı dövründən birlikdə ömür sürür  və aralarında heç bir problem yoxdur. Eyni zamanda, Azərbaycanda tarixin bütün dövrlərində xalqların birgəyaşayışında problem olmamışdır”.

Birgəyaşama təcrübəsinin İslam sivilizasiyasının mühüm prinsiplərindən biri olduğunu bildirən MDTF-nin icraçı direktoru, i.f.d. Mehman İsmayılov simpoziumun təşkilində əməyi olan hər kəsə təşəkkür edib. Vurğulayıb ki, İndoneziyadan Balkanlara, Afrikadan Rusiyayadək müxtəlif İslam coğrafiyalarını gəzdiyimiz zaman birgəyaşayışın nümunələrinə rast gəlirik.

M.İsmayılov vurğulayıb ki, İslam dünyasının zəngin irsinin təbliğinə böyük ehtiyac var. Biz bu dəyərli irsimizi təbliğ etməyə çalışmalıyıq. Araşdırmalarıma əsaslanaraq deyə bilərəm ki, İslamda birgəyaşayış Allah sevgisi və insani dəyərlər üzərində qurulduğu halda, kapitalist Qərb dünyasında birgəyaşayış şəxsi mənafeyə əsaslanır.

Kırıkkale Universitetinin rektoru, prof., dr.  Ersan Aslan deyib ki, ali təhsil müəssisəsi “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda Beynəlxalq Simpoziumun ikincisinə ev sahibliyi edir. Qeyd edib ki, əslində, İslam sivilizasiyasını izah etmək üçün hələ çox yolumuz var: “Biz bu uzun yolun ikinci pilləsindəyik, burada birlikdə nələr etdiyimizi və nə etməli olduğumuzu sual edirik. Bu səbəbdən, bir çox ölkələrdən olan qardaş və bacılarımızı burada, Universitetimizdə və şəhərimizdə görməkdən və qonaq etməkdən xoşbəxtik”.

Rektor qeyd edib ki, birgəyaşayış, əslində, bizim üçün o qədər də çətin deyildir. Tariximizdə bunun bir çox nümunəsini görə bilərik.

Prof., dr.  Ersan Aslan daha sonra deyib ki, ən parlaq nümunələrdən biri 839-cu ildə qurulan beytül-hikmədir.  Rektor bu simpoziumun gənclərə İslam sivilizasiyasında birgəyaşayış ənənəsi haqqında bir çox bilgilərin çatdırılması üçün önəmli platforma rolunu oynayacağına ümid etdiyini bildirib.

Çıxışlardan sonra proqram Ankara Universiteti İlahiyyat fakültəsinin müəllimi, prof. Sönməz Kutlunun “Birgəyaşayışın konseptual çərçivəsi” mövzusunda panellə davam edib.

Qeyd edək ki, simpoziumun ilk iki günündə cəmiyyət, təhsil və İslamın əsas mövzuları çərçivəsində eyni vaxtda 103 məruzə baş tutacaq.

Simpoziumun keçirilməsində məqsəd – İslam mədəniyyəti kontekstində fərqli din nümayəndələrinin birgəyaşayışı ilə bağlı vəziyyəti müzakirə etmək; müsəlman cəmiyyətləri arasında bu istiqamətdə










mövcud təcrübələrdən yararlanmaq və onları təşviq etmək; müvafiq sahə üzrə mütəxəssis və araşdırmaçıların verdikləri töhfələri üzə çıxarmaq, qorumaq və gələcək nəsillərə ötürmək; həmin istiqamətdə elmi, siyasi, ictimai və fərdi tədqiqatların artırılmasına zəmin yaratmaqdır. “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda I beynəlxalq simpozium 20-21 sentyabr 2022-ci il tarixlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondu, Kırıkkale Universitetinin İslam elmləri fakültəsi və İslam Ölkələri Tədqiqat Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib.

## Anlaşma Memorandumu imzalanıb

Azərbaycan İlahiyyat İnstitutu və Malayziya Milli Universiteti (The National University of Malaysia, Malay: Universiti Kebangsaan Malaysia) arasında 12 oktyabr 2023-cü il tarixində Anlaşma Memorandumu imzalanıb.

Memoranduma əsasən, hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması, birgə layihələrin reallaşdırılması, professor-müəllim heyəti və doktorantlar üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi nəzərdə tutulur.

Sənəddə tədris metodu üzrə elmi məlumatların qarşılıqlı ötürülməsi; təcrübə və araşdırma; tədris prosesinin təşkili ilə bağlı biliklərin bölüşdürülməsi; universitetlərin alim və mütəxəssislərinin iştirakı ilə konfransların keçirilməsi; tələbə mübadiləsi və digər məsələlər yer alıb.

Xatırladaq ki, Azərbaycanın Malayziyadakı Səfirliyinin və "İdrak" İctimai Birliyinin təşkilatçılığı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşlarından ibarət nümayəndə heyəti 22-26 may 2023-cü il tarixlərində Malayziyada işgüzar səfərdə olublar. Nümayəndə heyəti rəsmi səfər çərçivəsində Malayziya Milli Universitetini ziyarət edib. Görüşdə ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində Anlaşma Memorandumunun imzalanması qərara alınıb.



## Vasim Məmmədəliyevin Anım Günü

Mərhum akademik, şərqşünas alim, Əməkdar elm xadimi, uzun illər Bakı Dövlət Universiteti (BDU) İlahiyyat fakültəsinin dekanı olmuş, eyni zamanda, BDU Şərqşünaslıq fakültəsi Ərəb filologiyası kafedrasının müdiri işləmiş Vasim Məmmədəliyevin anım günüdür. Vasim Məmmədəliyev 13 oktyabr 2019-cu il tarixində vəfat etmişdir. Mərhum akademikin vəfatından 4 il ötür.

O, 160-dək elmi əsərin, o cümlədən 21 monoqrafiyanın müəllifidir. Xaricdə 50-dən çox elmi əsəri dərc olunmuşdur. Vasim Məmmədəliyev akademik Ziya Bünyadov ilə Qurani-Kərimi ilk dəfə Azərbaycan dilinə tərcümə etmişdir. 1991-ci ildə çap edilmiş bu tərcümə indiyədək müxtəlif illərdə 10 dəfədən artıq nəşr olunmuşdur.

Görkəmli alim Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 2002-ci ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Vasim Məmmədəliyev II Fəxri xiyabanda dəfn olunmuşdur.

Allah rəhmət eləsin!

## Beynəlxalq simpoziumun materialları çapdan çıxıb

Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondu və Türkiyənin Kırıkkale Universitetinin birgə təşkil etdikləri "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda I beynəlxalq simpoziumun materialları çapdan çıxıb. İki cilddə çap olunan kitabda müxtəlif ölkələrin elm adamlarının 50-dən artıq məqaləsi yer alıb.

Qeyd edək ki, "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda I beynəlxalq simpozium 20-21 sentyabr 2022-ci il tarixlərində Bakıda, II beynəlxalq simpozium isə 5-7 oktyabr tarixlərində isə Türkiyənin Kırıkkale şəhərində keçirilib.

Məlumat üçün bildiririk ki, Simpoziumun keçirilməsində məqsəd – İslam mədəniyyəti kontekstində fərqli din nümayəndələrinin birgəyaşayışı ilə bağlı vəziyyəti müzakirə etmək; müsəlman cəmiyyətləri arasında bu istiqamətdə mövcud təcrübələrdən yararlanmaq və onları təşviq etmək; müvafiq sahə üzrə mütəxəssis və araşdırmaçıların verdikləri töhfələri üzə çıxarmaq, qorumaq və gələcək nəsillərə ötürmək; həmin istiqamətdə elmi, siyasi, ictimai və fərdi tədqiqatların artırılmasına zəmin yaratmaqdır.



## Briqhem Yanq Universitetinin nümayəndə heyəti Aİİ-də



ABŞ-nin Yuta ştatında yerləşən Briqhem Yanq Universiteti Humanitar fakültəsinin dekanı, prof. Skot Miller, dekan müavini dr. Qrant Lundberq, Briqhem Yanq Universiteti Dil Araşdırmaları Mərkəzinin direktoru, dr. Ray Klifford və İsa Məsihin Son Zaman Müqəddəsləri Kilsəsinin nümayəndəsi Paul Pikard 18 oktyabr 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət ediblər.

Aİİ rektoru, dosent Aqil Şirinov qonaqlara ölkəmizdə mövcud olan birgəyaşayış ənənəsi, tolerantlıq mühiti barədə məlumat verib. Rektor Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını vurğulayaraq, Azərbaycan dövlətinin də ölkədəki ənənəvi dini qruplara daim qayğı ilə yanaşdığını qeyd edib.

Rektor Aİİ haqqında geniş məlumat verib. Ali təhsil müəssisəsində mövcud ixtisaslar, təhsil səviyyələri barədə bəhs edərkən bildirib ki, tədris zamanı bütün dinlər haqqında tələbələrə geniş bilgilər verilir.

Qonaqlar ABŞ-nin Yuta ştatında yerləşən Briqhem Yanq Universiteti haqqında məlumat verib, iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq əlaqələrinin perspektivlərini qeyd ediblər. Qonaqlar Yuta ştatında yaşayan etnik və dini qruplar barədə də söhbət açıb, burada mövcud ibadət yerlərinin tarixindən bəhs ediblər.

Daha sonra qonaqlarla ali təhsil müəssisəsinin kollektivi arasında görüş baş tutub. Görüşdə Aİİ İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova ölkəmizdə mövcud ali dini təhsilin tarixi, İnstitutun fəaliyyəti haqqında məlumat verib.

Briqhem Yanq Universiteti Humanitar fakültəsinin dekanı, prof. Skot Miller təmsil etdiyi ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Humanitar kollecin fəaliyyəti barədə danışan dekan bir çox dünya dillərinin burada tədris edildiyini diqqətə çatdırıb.

Görüş zamanı qonaqlar kollektivi maraqlandıran mövzular ətrafında sualları cavablandırıblar.

## Kafedra müdiri beynəlxalq konfransda iştirak edib



Rusiya Federasiyası (RF) Bolqar İslam Akademiyasında (BİA) 30 oktyabr – 1 noyabr 2023-cü il tarixlərində "Müasir təhsil sistemində İslam teologiyası: problemlər və perspektivlər" mövzusunda III beynəlxalq konfrans keçirilib.

Konfransda Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazov iştirak edib. O, "Azərbaycanda İslam elmlərinin tədrisi: ənənəvilik və müasir aspektlər" mövzusunda məruzə ilə çıxış edib. Ə.Niyazov təmsil etdiyi ali təhsil müəssisəsində İslam elmlərinin tədris üsulları barədə geniş məruzə edib.

## "Açıq mikrofon" günü

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 20 oktyabr 2023-cü il tarixində III və IV kurs tələbələri ilə görüşüb, onların təklif və iradlarını dinləyib.

Aİİ rektoru öncə tələbələrə tövsiyələrini verib, onları dərslərdə daha fəal olmağa səsləyib. Bildirib ki, savadlı kadr olduğunuz təqdirdə, işlərinizdə daha çox uğur qazanacaqsınız: "Ölkədə yeganə tam ödənişsiz təhsil verən ali təhsil müəssisəsində tələbələrin yüksəkixtisaslı kadr kimi yetişməsi üçün lazımi şərait yaradılıb. Çalışın, yaradılan şəraitdən maksimum yararlanasınız. Gələcəkdə ilahiyyat sahəsi üzrə peşəkar mütəxəssis olmaq istəyirsinizsə, təsis edilən peşə hazırlığı, ərəb dili kurslarında, eyni zamanda, dərslərdə hədis, əqaid, təfsir və digər islam elmləri ilə əlaqədar oxunan klassik mətnlərin tərcüməsində fəal iştirak edin".

Rektor daha sonra tələbələrin təkliflərini dinləyib, səsləndirilən məsələlərin həlli üçün İnstitut heyəti olaraq çalışacaqlarını söyləyib. A.Şirinov daha sonra vurğulayıb ki, Aİİ-də tədrisin keyfiyyətinin yüksəldilməsi, təhsil prosesinin təkmilləşdirilməsi, müəssisənin innovativ fəaliyyətinin təmin edilməsi məqsədilə "Təklif və iradlar" qutusu mövcuddur. Bu qutu vasitəsilə təhsilalanlar öz fikirlərini çatdıra bilərlər.

## İlahiyyat İnstitutunun dosenti məruzə edib



Azərbaycan Dillər Universitetində Regionşünaslıq kafedrası və "Azərbaycanşünaslıq" Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə 2 noyabr 2023-cü il tarixində ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və din" mövzusunda "dəyirmi masa" keçirilib.

Regionşünaslıq kafedrasının müdiri, professor Sevdagül Əliyeva açılış nitqi ilə çıxış edərək, ulu öndər Heydər Əliyevin xalqımızın dini tədbirlərinə tez-tez qatıldığını, onlarla dövlət-din münasibətlərinin incəliyi haqqında söhbətlər etdiyini nəzərə çatdırıb.

Azərbaycan İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının müəllimi, dosent Məmmədəli Babaşlı "Ümummilli Lider və Azərbaycanda dövlət–din münasibətlərinin tənzimlənməsi prosesi" mövzusunda məruzə ilə çıxış edib. Dosent ulu öndər Heydər Əliyev hakimiyyətə yenidən qayıtdıqdan sonra, Azərbaycanın bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də yeni mərhələyə qədəm qoyduğunu, dini və milli dəyərlərin dirçəlişi prosesinin sürətləndiyini vurğulayıb, həmçinin dini etiqad azadlığı haqqında geniş məlumat verib.

## AİI Beynəlxalq Kitab Sərgisində iştirak edib



Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 11–15 noyabr 2023-cü il tarixlərində Bakı Ekspo Mərkəzində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş IX

Bakı Beynəlxalq Kitab Sərgisində (Baku International Book Fair 2023) iştirak edib.

Sərgidə iştirak üçün 11 ölkədən 30-dan çox xarici təşkilat, 109 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə qeydiyyatdan keçib.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata keçirir. "İlahiyyat nəşrləri" adı altında layihəyə müəllimlərimizin və bu sahədə çalışan mütəxəssislərin kitablarının, müxtəlif dillərdən tərcümə olunan əsərlərinin nəşri daxildir. Eyni zamanda, İnstitutun qarşısına qoyduğu məqsədlərdən biri də ilahiyyat sahəsindəki problemləri araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.

## "Kərkük" ilahi qrupunun ifaları dinlənilib



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birlikdə təşkil etdikləri "İraq türkmanları və türk dünyası: tarixi yaddaşın bərpası" mövzusunda beynəlxalq konfransın iştirakçısı olan "Kərkük" ilahi qrupu 1 noyabr 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunda olub.

AİI rektoru, dosent Aqil Şirinov qonaqları salamlayaraq, ulu öndər Heydər Əliyevin "Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır" sözlərini xatırladıb. Rektor bildirib ki, dilimiz, dinimiz, adət-ənənələrimiz, ədəbiyyatımız, mədəniyyətimizin eyni olduğu türkman soydaşlarımızla bağlarımızın daha da yaxınlaşması qürurvericidir.

"Kərkük" ilahi qrupunun üzvü Əli Köprülü çıxış edərək, ali təhsil müəssisəsində olmaqdan məmnunluğunu ifadə edib. Xalqlarımız arasında mövcud olan möhkəm bağları diqqətə çatdıran qonaq Azərbaycanı Vətən bildiklərini, hər zaman ölkəmizin birliyi, bütövlüyü üçün dualar etdiklərini vurğulayıb. O, həmçinin 44 günlük Vətən müharibəsində Azərbaycana daim mənəvi dəstək olduqlarını da nəzərə çatdırıb.

Daha sonra "Kərkük" ilahi qrupunun ifaları dinlənilib.

# Zəfər Günü qeyd edildi

Azərbaycan İlahiyyat İnstitutunda 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Dövlətimizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Aİİ rektoru, dosent Aqil Şirinov Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Bildirib ki, böyük qürur hissi ilə qeyd etdiyimiz bu günləri bizə yaşadan, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən Müzəffər Ordumuzun əsgər və zabitləri qarşısında baş əyir, şəhidlərimizə Allahdan rəhmət diləyirik.

Tarixi keçmişimizə nəzər salan rektor ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı hadisələrinə diqqət çəkib. Əsrlərdir, bizə qarşı torpaq iddiası irəli sürən mənfur qonşularımızın, əslində, havadarları tərəfindən torpaqlarımızda məskunlaşdırıldığını vurğulayıb.

Rektor Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə hazırda Qarabağımızın hər bir nöqtəsində yenidənqurma işlərinin aparıldığını, Qarabağ və Şərqi Zəngəzura "Böyük Qayıdış"ın gerçəkləşdirildiyini diqqətə çatdırıb.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Yaqub Mahmudov Qarabağ Zəfərimizin mahiyyəti barədə geniş məruzə edib.



Akademik bildirib ki, Qarabağ Zəfəri 1813-cü və 1828-ci illər faciələrindən sonra, Azərbaycan xalqının müharibə meydanında qazandığı ən böyük tarixi nailiyyətdir: "Bu Zəfərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər bütün çıxışlarında qaçqın və məcburi köçkünlərin mütləq öz torpaqlarına qayıdacaqlarını, erməni işğalının uzun sürməyəcəyini dönə-dönə vurğulayırdı. Hər şeyin zamana ehtiyacı olduğunu bildirirdi".

Akademik bildirib ki, Vətən müharibəsində böyük tarixi Qələbəmiz Azərbaycanın son 200 illik tarixində ilk dəfədir reallaşıb. Bunu böyük güc mərkəzlərinə qarşı siyasi-diplomatik mübarizədə və döyüş cəbhəsində öz xalqına və Şanlı Ordumuza başçılıq edən müzəffər Ali Baş Komandan İlham Əliyev həyata keçirib.

# Elmi seminar keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda 17 noyabr 2023-cü il tarixində Rəcəb Tayyib Ərdoğan Universitetinin keçmiş rektoru, Yüksek Öğretim Kurulunun üzvü, professor Hüseyn Karaman "Fuat Sezgin və müsəlmanların elmə töhfələri" mövzusunda məruzə ilə çıxış edib.

Tədbirdə Türkiyənin Azərbaycandakı Səfirliyinin mədəniyyət, turizm və təbliğat işləri üzrə müşaviri professor Muhittin Macid və qurumun din işləri üzrə müşaviri İhsan Açık, Aİİ-nin rəhbər heyəti və tələbələri iştirak ediblər.

Aİİ rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edərək, qonağı ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu diqqətə çatdırıb. Tədbirin əhəmiyyətinə toxunan A.Şirinov bildirib ki, İslam dünyası bugünədək ixtiraları ilə elm dünyasına işıq salmağı bacaran, elm tarixində iz qoyan görkəmli mütəfəkkirlər yetişdirib ki, belə alimlərindən biri də Fuat Sezgindir.

Professor Hüseyn Karaman İslam dininin elmə verdiyi önəmdən söhbət açaraq, müsəlman alimlərinin dünyaya bəxş etdikləri töhfələrdən bəhs edib. Professor Fuat Sezginin həyatı, İslam mədəniyyətinə və dünya elminə mühüm xidmətləri haqqında geniş söhbət açıb.




Hüseyn Karaman qeyd edib ki, İslam elm adamlarının tanınmış simalarından biri olan Fuat Sezginin vəfatından sonra, 2019-cu ildə Türkiyə Respublikasında "Fuat Sezgin İli" elan olunub.

Türkiyənin Azərbaycandakı Səfirliyinin müşavirləri Muhittin Macid və İhsan Açık görkəmli elm xadimi Fuat Sezgin haqqında danışaraq, belə alimlərin İslam mədəniyyətinə böyük töhfələr verdiyini, onların xalqlarımız arasında elm və dostluq körpüsü yaratdığını bildiriblər.

# Rektor tələbələrlə görüşüb





Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 17 noyabr 2023-cü il tarixində II kurs tələbələri ilə görüşüb, onların təklif və iradlarını dinləyib.

Aİl rektoru öncə tələbələrə tövsiyələrini bildirib, onları dərslərdə daha fəal olmağa səsləyib.

Ali təhsil müəssisəsinin rəhbəri bildirib ki, daha savadlı, bilikli kadr kimi yetişmək üçün təkcə dərslərlə kifayətlənmək olmaz. Vaxtın səmərəli istifadəsinin zəruri olduğunu qeyd edən rektor vurğulayıb ki, İnstitutun Kitabxana fondunda mövcud kitablardan faydalanıb, yeni bilgilər əldə etmək vacibdir.

A.Şirinov daha sonra bildirib ki, yaxşı mütəxəssis olmaq üçün dil bilgilərini mükəmməl mənimsəmək vacibdir. Rektor qeyd edib ki, ilahiyyat sahəsi üzrə peşəkar mütəxəssis olmaqdan ötrü yaradılan şəraitdən maksimum yararlanmalı, peşə hazırlığı, ərəb dili kurslarında, həmçinin dərslərdə hədis, əqaid, təfsir və digər İslam elmləri ilə əlaqədar oxunan klassik mətnlərin tərcüməsində fəal iştirak etmək zəruridir.

Rektor tələbələrin təkliflərini dinləyib, səsləndirilən məsələlərin həlli üçün İnstitut heyəti olaraq çalışacaqlarını vurğulayıb.





# Tələbələr kilsəni ziyarət ediblər



Azərbaycan İlahiyyat İnstitutunun "Dinşünaslıq" ixtisası üzrə təhsil alan kurs tələbələri ali təhsil müəssisəsinin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Aliyə Mürsəlovanın müşayiəti ilə Bakı və Azərbaycan Yeparxiyası kafedral kilsəsi – Müqəddəs mürr-daşıyan zənənlər kilsəsini ziyarət ediblər. Kilsənin ziyarəti ölkəmizin dini müxtəlifliyinin öyrənilməsi çərçivəsində baş tutub. Rəbbin Günü ibadətinin sonunda Bakı Yeparxiyasının mətbuat katibi, protoiyerey Konstantin Pominov qonaqları salamlayaraq, tələbələrə Azərbaycanda Pravoslav kilsəsinin tarixi, məbədin tərtibatı, həmçinin burada icra olunan ibadət haqqında məlumat verib, ziyarətçilərin suallarını cavablandırıb.

# Rektor gənclərlə görüşüb





Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 21 noyabr 2023-cü il tarixində Dost Gənclərin İnkişaf Klubunda gənclərlə görüşüb.

Görüşdə Milli Məclisin deputatı Ceyhun Məmmədov və tələbələr iştirak ediblər.

Rektor Aqil Şirinov tələbələrə tövsiyələrini verib. Bildirib ki, hər bir gəncin qarşısında duran əsas vəzifə – təhsil aldığı ixtisas üzrə bilikli, savadlı olmaq, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda dövlətimizə, xalqımıza layiqli vətəndaş kimi yetişməkdir. Əldə olunan bilik və bacarıqların düzgün və lazımi şəkildə tətbiqi də vacib məsələlərdəndir.

Rektor A.Şirinov üzvləri arasında Azərbaycan İlahiyyat İnstitutunun tələbələri də olduğu Dost Gənclərin İnkişaf Klubunun zəngin milli-mədəni irsimizin təbliği istiqamətində səylə çalışacağına ümidvar olduğunu diqqətə çatdırıb.

Görüşün sonunda AİL rektoru gəncləri maraqlandıran sualları cavablandırıb.



# Maarifləndirici tədbirlər keçirilib



Azərbaycan İlahiyyat İnstitutunda 21 noyabr 2023-cü il tarixində tələbələr üçün maarifləndirici tədbir keçirilib.

AİL İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazovun moderatorluğu ilə baş tutan tədbirdə bildirilib ki, mediasiya mübahisələrin məhkəmədənkənar həlli üsuludur. Mediasiya institutu Azərbaycanın məhkəmə hüquq sistemi üçün yenilikdir. Qurum mülki, ailə, əmək məsələləri üzrə insanlararası sülhyaratma təşəbbüsüdür.

Mediator Sadiq Bağırov "mediasiya" anlayışı haqqında ümumi məlumat verib. Ölkəmizdə 2019-cu ildə "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edildiyini diqqətə çatdıran təlimçi mediasiyanın mübahisələrin alternativ həlli yollarından biri olduğunu, cəmiyyətdə qarşımıza çıxan problemlərin həllində, münaqişələrin yoluna qoyulmasında və gərginliyin azaldılmasında böyük rol oynadığını bildirib.

Təlimçilər Gültəkin Məmmədova və Mayıl Bayramov Mediasiya Şurası haqqında məlumat veriblər. Bildiriblər ki, Şuranın başlıca vəzifəsi qısa müddətdə mübahisələrin həll edilməsini, hüquqşünaslar tərəfindən hüquqların operativ, dürüst və vicdanla qorunmasını təmin etməkdən ibarətdir. Mediatorlar mediasiyanın inkişaf perspektivləri haqqında, eləcə də Azərbaycanda mediasiyanın tətbiqi ilə bağlı ətraflı məlumat veriblər.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# Qazaxıstan İnstitutu ilə əlaqələr genişlənir



Qazaxıstan Respublikası Elm və Təhsil Nazirliyi Elm Komitəsi Fəlsəfə, Siyasi Elmlər və Dini Tədqiqatlar İnstitutunun nümayəndələri 23 noyabr 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunda olublar.

Görüşdə Fəlsəfə, Siyasi Elmlər və Dini Tədqiqatlar İnstitutunun baş elmi işçisi, professor Baxıtjan Saterşinov və qurumun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Aykərim Altayqızı, "İdrak" İctimai Birliyinin sədri Rüfət Quliyev iştirak ediblər.

Aİİ rektoru, dosent Aqil Şirinov qonaqları salamlayaraq, onları İnstitutda görməkdən məmnun olduğunu bildirib. İlahiyyat İnstitutunun fəaliyyəti haqqında məlumat verən rektor ali təhsil müəssisəsinin məqsəd və vəzifələri, hədəfləri haqqında ətraflı bəhs edib, Aİİ-nin beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini diqqətə çatdırıb. A.Şirinov bildirib ki, dünyanın bir çox tanınmış ali təhsil müəssisələri ilə İnstitut arasında ikitərəfli protokollar, memorandumlar imzalanıb.

Rektor Qazaxıstanda fəaliyyət göstərən "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universiteti ilə əməkdaşlıq müqaviləsi çərçivəsində sözügedən ali təhsil müəssisəsinin iki tələbəsinin 2021-2022-ci tədris ilində təhsilini Azərbaycan İlahiyyat İnstitutunda davam etdirdiyini də diqqətə çatdırıb. O bildirib ki, bir semestr davam edən tədris ingilis dilində aparılıb. A.Şirinov dərslərin öz sahəsinin peşəkar mütəxəssisləri olan Aİİ-nin müəllimləri tərəfindən keçirildiyi əlavə edib.

Fəlsəfə, Siyasi Elmlər və Dini Tədqiqatlar İnstitutunun baş elmi işçisi, professor Baxıtjan Saterşinov və qurumun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Aykərim Altayqızı təmsil etdikləri müəssisə haqqında geniş məlumat veriblər. Onlar iki müəssisə arasında həyata keçirilə biləcək layihələr barədə söhbət açıblar.

Görüşdə elmi-tədqiqat sahəsində əməkdaşlığın həyata keçirilməsi, məqalələrin çapı, birgə elmi seminar və konfransların təşkili barədə müzakirələr aparılıb.

# Kafedra müdiri beynəlxalq simpoziumda məruzə edib



Azərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarov 29 noyabr 2023-cü il tarixində Türkiyədə keçirilən beynəlxalq simpoziumda məruzə ilə çıxış edib

Türkiyə Respublikası Bülent Ecevit Universiteti İlahiyyat fakültəsinin və Türkiyə Elm, Mədəniyyət və İncəsənət Tədbiqetmə və Araşdırma Mərkəzinin təşkilatçılığı ilə "Səlcuqlu Anadolusunda elm və alimlər" mövzusunda beynəlxalq simpozium keçirilib.

Bülent Ecevit Universitetinin İlahiyyat fakültəsində keçirilən simpoziumun açılış mərasimində qurumun prorektoru, professor Bəkir Hakan Bakkal, Müfti Aşır Durgun, İlahiyyat fakültəsinin dekanı, professor Seyfullah Kara, İLKSAM-ın direktoru, fəlsəfə doktoru Ömər Sami Uzuner açılış nitqi ilə çıxış ediblər.

Onlayn formatda təşkil olunan simpozium müxtəlif elm sahələrinə dair panellər üzrə davam edib. Beynəlxalq simpoziumun panellərində moderator kimi iştirak edən dosent A.Qafarov "Selcuklu döneminde nefse dair felsefi temelendirmelere yöneltilen eleştiriler: Gazzali örneğinde bir analiz" mövzusunda məruzə ilə çıxış edib. A.Qafarov müsəlman filosofların nəfs nəzəriyyəsinə dair fəlsəfi müzakirələrinin metafizik, ontoloji, epistemoloji və esxatoloji aspektlərdən əhəmiyyətini izah edib. Daha sonra filosofların nəfsin mücərrəd substansiya olduğuna dair arqumentasiyalarından və Qəzalinin bu istiqamətdəki elmi-fəlsəfi açıqlamalara yönəltdiyi tənqidlərdən bəhs edib.

# Kəlbəcər Şəhəri Günü tədbiri



Azərbaycan İlahiyyat İnstitutunda 25 Noyabr – Kəlbəcər Şəhəri Gününə həsr olunmuş "Böyük Qayıdış: Heydər Əliyev strategiyasının təntənəsi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Dövlət Himni səsləndirilib.

Aİİ rektoru, dosent Aqil Şirinov Kəlbəcər Şəhəri Günü münasibətilə hər kəsi təbrik edib. Bildirib ki, Kəlbəcər 27 illik işğaldan sonra azad olundu. A.Şirinov Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayıb. Vurğulayıb ki, Kəlbəcər Azərbaycanın füsunkar bölgələrindən biridir; sərvətlərini talayan, daşı-daş üstündə qoymayan mənfur düşməndən azad olunan bu yurd hazırda daha da gözəlləşir, sanki burada təbiətin yenidən oyandığının şahidi oluruq.

Rektor Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sözlərini diqqətə çatdırıb: "Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə də heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini...".

A.Şirinov Böyüş Qayıdışın tezliklə Kəlbəcərə də baş tutacağını, Azərbaycan xalqının bu bölgəni daha gözəl bir məkana çevirəcəyini diqqətə çatdırıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Strateji Planlaşdırma və İnkişaf Departamentinin rəhbəri, iqtisad elmləri doktoru Aqil Əsədov bildirib ki, hazırda arzularımızın gerçəkləşdiyi dövrü yaşayırıq. A.Əsədov nitqinə ümummilli lider Heydər Əliyevin sözləri ilə davam edib: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". O bildirib ki, düşünülmüş şəkildə 1994-cü ildə Əsrin müqaviləsi ilə başlayan proseslərlə güclü iqtisadiyyata malik ölkəyə çevrildik. O bildirib ki, hazırda Prezident cənab İlham Əliyevin uğurlu və uzaqgörən siyasətinin nəticəsi olaraq, işğaldan azad edilmiş torpaqlarımızda yenidənqurma işləri sürətlə davam edir. Qarabağ və Şərqi Zəngəzurun qısa zamanda cənnətə çevriləcəyini vurğulayan məruzəçi bildirib ki, Böyük Qayıdış sürətlə davam edir, Laçın və Füzuli rayonlarına ailələrin köç etdiyini diqqətə çatdırıb.

Bakı Dövlət Universiteti İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı uşaqlıq xatirələrini bölüşüb. O bildirib ki, Kəlbəcər işğal olunanda təkcə insanlarımız qaçqın düşmədi, kəndimizlə bərabər uşaqlığımız da girov düşdü: "Bu çox ağrılı məsələdir, yəni uşaqlığımın bir nişanəsi də yoxdur. Və bu, doğulduğum yurdun itkisindən də ağır itkidir". O daha sonra vurğulayıb ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq, Vətənimizin igid oğullarının şücaəti ilə torpaqlarımız düşmən tapdağından azad edildi. Hazırda yurd-yuvalarımıza böyük sevinclə geri dönürük.

Tədbirdə Bakı Dövlət Universiteti İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlının ssenari müəllifi olduğu "Azad Kəlbəcər" filmi nümayiş olunub.

# Tələbələr kilsəni ziyarət ediblər

Azərbaycan İlahiyyat İnstitutu "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisaslarının II kurs tələbələri 8 dekabr 2023-cü il tarixində Müqəddəs Məryəm katolik kilsəsində olublar.

Azərbaycanda Katolik kilsəsinin Apostol zrefekturasının mətbuat katibi Toral Ağayev ziyarətçiləri səmimi salamlayaraq onlara Azərbaycanda xristianlığın və Katolik Kilsəsinin tarixi və bu günü, Roma Papası II İohann Pavelin ölkəmizə 2002-ci ildə etdiyi tarixi səfəri haqda, həmçinin Müqəddəs Məryəm kilsəsinin memarlığı, kilsənin daxili və xarici tərtibatında istifadə olunan dini rəmzlərin mənası haqda geniş məlumat verib.

Sonra T.Ağayev gənc ilahiyyatçıların Katolik kilsəsinin dini və mənəvi təlimi, katolik ibadətinin xüsusiyyətləri haqda çoxsaylı suallarını cavablandırıb.



# AİI-nin müəllimi beynəlxalq forumda iştirak edib




Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müəllimi, Hacı Cavad məscidinin imamı, fəlsəfə üzrə fəlsəfə doktoru İbrahim Quliyev 29-30 noyabr 2023-cü il tarixlərində İraqın paytaxtı Bağdad şəhərində "Al-Taf: islahat inqilabından saleh dövlət quruculuğuna" mövzusunda keçirilən XI beynəlxalq dini və mədəniyyət forumunda iştirak edib.

Konfrans dini-mədəni baxımdan Kərbəla hadisəsinə həsr edilib. Həmçinin hadisənin sosioloji, əxlaqi, tarixi mahiyyəti mövzusunda çıxışlarla yadda qalıb.

Tədbirdə bu olayın müsəlman xalqlarının mədəniyyətinə olan təsiri və digər məsələlər müzakirə olunub.

Konfrans çərçivəsində İraqın məşhur alimləri ilə yanaşı, dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlər arasında da səmərəli görüşlər keçirilib.

İbrahim Quliyev konfransda "Kərbəla hadisəsinin mahiyyəti və Azərbaycan mədəniyyətinə təsiri" mövzusunda elmi məruzə ilə çıxış edib. Məruzədə Kərbəla hadisəsinin mahiyyəti, başvermə səbəbləri; İmam Hüseynin genoloji xüsusiyyətləri; Kərbəla hadisəsindən bəhs edən qaynaqların mənbəşünaslıq problemləri; Aşura mərasimlərinin keçirilməsi; Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsində ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı cənab Prezident İlham Əliyevin siyasi rolundan bəhs edilib. Həmçinin ölkəmizin tarixboyu dini mənzərəsi, Kərbəla hadisəsinin xalqımızın sosial-mədəni, o cümlədən elmi-fəlsəfi və teoloji fikrə necə təsir etdiyi, Aşura mərasimlərinin düzgün, Xurafatdan uzaq şəkildə təşkil edilməsində ilahiyyatçıların və məscid imamlarının rolu barədə dolğun məlumatlar da məruzədə əks olunub.

İ. Quliyev Azərbaycanın əsrlərboyu İslam dininin tarixi-mədəni mərkəzi olması, ölkəmizin müxtəlif regionlarında mədrəsələrin, əhlibeytə mənsub şəxslərin məqbərələrinin mövcudluğu və onların dövlət tərəfindən mühafizəsi, o cümlədən dini maarifin təşkili ilə bağlı maraqlı faktları, müasir dövrdə Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti haqqında məlumatları təqdim edib.

Məruzədə qeyd olunub ki, Azərbaycan alimləri, ədib və şairləri, hətta dini təbliğin qadağan olunduğu sovet dövründə belə, Kərbəla hadisəsindən bəhs edən çoxsaylı əsər, şeir və mərsiyə yazmışlar.

Tədbiri təşkil edən qurum, öncəki konfransların təcrübəsindən irəli gələrək, sözügedən məruzələrin elmi topluda çap etdirilməsini nəzərdə tutur.

İ. Quliyev İraqın dövlət tarixi-memarlıq muzeylərinə baş çəkib və müqəddəs yerləri – Kərbəla, Nəcəf, Kufə, Kazimeyn və Samira şəhərlərini ziyarət edib.

İ. Quliyev konfransı təşkil edən qurumların sertifikat və hədiyyələri ilə təltif olunub.

Azərbaycan İlahiyyat İnstitutunda 7 dekabr 2023-cü il tarixində ulu öndər Heydər Əliyevin Anım Gününə həsr edilmiş "Milli Qurtuluşdan möhtəşəm zəfərə" mövzusunda konfrans keçirilib.

Ulu öndər Heydər Əliyevin və dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra AİI-nin IV kurs tələbəsi Əmrah Eminov tərəfindən Ulu Öndər və şəhidlərimizin ruhuna Quran tilavəti təqdim edilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı açılış nitqi ilə çıxış edib. Mübariz Qurbanlı Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı keçirilən tədbirlərin əhəmiyyətinə toxunub. Bildirib ki, bütün cəmiyyətə, əsasən də gənc nəslə Ulu Öndərin irsinin daha geniş şəkildə çatdırılması Azərbaycan xalqının milli sərvəti, tükənməz xəzinəsi olan Heydər Əliyev dühasından gələcək nəsillərin bəhrələnməsi böyük fayda kəsb edir. Daha sonra dahi şəxsiyyətin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından danışan Komitə sədri qeyd edib ki, Ulu Öndər müstəqil Azərbaycanın inkişafının təməl prinsiplərini formalaşdırıb, xalqımız və dövlətimiz naminə misilsiz xidmətlər göstərib. Heydər Əliyevin uğurlu daxili və xarici siyasət strategiyası sayəsində ölkəmiz iqtisadi inkişafa, daxili siyasi sabitliyə və əmin-amanlığa, milli-mənəvi dəyərlərə qayıdışa, bu dəyərlərin qorunmasına nail olub. Dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşımızda duran əsas vəzifələrdən biri dövlət-din müna-

# “Milli Qurtuluşdan möhtəşəm zəfərə” mövzusunda konfrans

sibətlərini formalaşdırmaq olub. Bu modeli Heydər Əliyev müəllifi olduğu Konstitusiyamızda elə təsbit edib ki, din cəmiyyətdə “təhdid”, “vasitə” deyil, “mənəvi vəhdət”, “həmrəylik” rolunu həyata keçirir.

Mübariz Qurbanlı vurğulayıb ki, dahi şəxsiyyətin müəyyən etdiyi prinsiplər Prezident İlham Əliyev tərəfindən yeni dövrün çağırışlarını özündə əks etdirməklə uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin açdığı yol ilə Azərbaycanı tarixi zəfərə apardı. Bu gün öz ərazi bütövlüyünü tam bərpa edən ölkəmiz nəinki regionun lider dövlətidir, eyni zamanda, dünyada böyük nüfuza sahibdir.

Millət vəkili Səyavuş Novruzov çıxış edərək, dəvətə görə təşəkkürünü bildirib və Ulu Öndərlə bağlı danışmağın məsuliyyətini diqqətə çatdırıb. O qeyd edib ki, Heydər Əliyevlə onun rəhbərliyi altında eyni dövrdə işləyib fəaliyyət göstərməyi ilə şərəf duyur. Məruzəçi Ulu Öndərlə bağlı xatirələrini bölüşüb. Dahi şəxsiyyətin fəaliyyət göstərdiyi bütün dövrlərdə xalqının, dövlətinin inkişafı yolunda çalışdığını vurğulayıb. Ölkənin sənaye ölkəsinə çevrilməsində, ordunun yenidən qurulmasında onun xidmətlərini diqqətə çatdırıb. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları göstərdi ki, Heydər Əliyevin qurtuluşdan gələn yolu bizi zəfərə apardı.

İlahiyyat İnstitutu rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvü, Bakı Dövlət Universitetinin professoru Şahlar Əsgərov çıxış edib. Heydər Əliyevin böyüdüyü və işlədiyi dövrün mürəkkəbliyinə, sovet dövründə dinə qarşı olan təzyiqlərə baxmayaraq, həmişə mənəvi dəyərlərə bağlı olduğunu qeyd edib. O, Heydər Əliyevin aforizmlərindən sitat gətirərək, onun milli-mənəvi dəyərlərə olan hörmətini diqqətə çatdırıb. Ulu Öndərin hakimiyyəti dövründə onun dövlət-din məsələlərinə xüsusi münasibətini qeyd edib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov çıxış edib. Heydər Əliyevin özündən sonra qoyub-getdiyi irsin mahiyyətinə diqqət çəkərək, bu mirası qoruyub gələcək nəsillərə çatdırmaq üçün çalışmağı bir vəzifə kimi gördüyünü vurğulayıb. Hal-hazırda ölkəmizdə mövcud olan multikultural mühitin təməlinin məhz Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayıb. Heydər Əliyevin vaxtilə Qarabağla bağlı söylədiyi sitatlar hal-hazırda həyata keçib və artıq bu da onun uzaqgörən siyasətçi olduğunu bir daha sübut edir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxış edib. Heydər Əliyevin hakimiyyəti dövründə ölkəmizin inkişafını, zəfərə doğru gəldiyimiz yolun məhz onun fəaliyyəti dövründən başladığını vurğulayıb. Hal-hazırda işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış başlayıbsa, Şuşa, Qubadlı, Zəngilan, Laçın və digər işğaldan azad olunmuş ərazilərdə məscidlər tikilirsə, bütün bunlar Milli Qurtuluşdan bəhrələnən yoldur.

Konfransın bağlanış nitqi ilə çıxış edən Aİİ rektoru Aqil Şirinov tədbir iştirakçılarına çıxışlarına görə təşəkkür edib, Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz rolundan bəhs edib. Ulu Öndərin xidmətlərinin nəticəsi olaraq, sütunları möhkəm olan bir dövlət miras qoyub-getdiyini və Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq, dövlətimizin daha da inkişaf etdiyini vurğulayıb.

Din sahəsində Ulu Öndərin xüsusi xidmətlərini diqqətə çatdıran rektor dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının məhz Ümummilli Liderin xidmətləri sayəsində baş verdiyini vurğulayıb.











# Fəxri professor diplomu təqdim edilib

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində 13 dekabr 2023-cü il tarixində “Dini-mənəvi dəyərlərin qorunması: sülh və təhlükəsizliyin möhkəmləndirilməsində dini liderlərin rolu” mövzusunda təşkil olunan XIX Beynəlxalq Müsəlman Forumu çərçivəsində Moskva İslam İnstitutunun rektoru və Rusiya Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, professor Damir Muhetdinova Aİİ-nin Fəxri professoru diplomunu təqdim edib.



Diplom D. Muhetdinova Azərbaycan və Rusiya arasında ilahiyyat sahəsində əlaqələrin inkişafında və möhkəmləndirilməsində müstəsna xidmətlərinə görə təqdim edilib.

Qeyd edək ki, Aİİ rektoru, dosent Aqil Şirinov Moskva İslam İnstitutunun fəxri professorudur.

## REKTOR BEYNƏLXALQ MÜSƏLMAN FORUMUNDA

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 13 dekabr 2023-cü il tarixində “Dini-mənəvi dəyərlərin qorunması: sülh və təhlükəsizliyin möhkəmləndirilməsində dini liderlərin rolu” mövzusunda təşkil olunan XIX beynəlxalq müsəlman forumunda iştirak edib.

Beynəlxalq Forum Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin təşkilatçılığı ilə  Moskva şəhərində baş tutub.

Tədbir Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, müfti Şeyx Ravil Qaynutdinin çıxışı ilə başlayıb. Daha sonra Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Birləşmiş Ərəb Əmirlikləri, İran, İraq, Suriya, Fələstin, Misir, Qətər, Küveyt və dünyanın müxtəlif ölkələrini təmsil edən alimlər çıxış ediblər.



Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Aqil Şirinov “Qloballaşan dünyada mədəniyyətlərarası əməkdaşlığın əhəmiyyəti” mövzusunda məruzə ilə çıxış edib. Rektor mədəniyyətlərarası əməkdaşlığın əhəmiyyəti və mahiyyətindən söhbət açıb. Mədəniyyətlərarası əməkdaşlığın teoloji əsasları və zorakılığa qarşı mübarizədə bu əsasların oynadığı rola diqqət çəkib.

Forum dünyanın müxtəlif universitetlərindən və təşkilatlarından olan alimlərin çıxışları ilə davam edib.



# İndoneziyalı qonaq AİI-də

İndoneziya Üləma Şurası Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq Komissiyasının sədri Bunyan Saptomo 14 dekabr 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunda olub.

AİI rektoru, dosent Aqil Şirinov qonağı ali təhsil müəssisəsində görməkdən məmnunluğunu ifadə edib, İnstitutun fəaliyyəti haqqında məlumat verib. Rektor ali təhsil müəssisəsinin məqsəd və vəzifələri, hədəfləri haqqında ətraflı bəhs edib, AİI-nin beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini diqqətə çatdırıb. Bildirib ki, dünyanın bir çox tanınmış ali təhsil müəssisələri ilə, o cümlədən İndoneziya universitetləri ilə İnstitut arasında əməkdaşlıq əlaqələri qurulub.

İnstitut rəhbəri AİI-nin xarici ölkə universitetlərinin təcrübəsini öyrənməkdə, tələbə və müəllim mübadiləsinin həyata keçirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

İndoneziya Üləma Şurası Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq Komissiyasının sədri Bunyan Saptomo təmsil etdiyi qurum haqqında geniş məlumat verib. Bildirib ki, müəssisə 1975-ci ildə Cakartada yaradılıb və tərkibinə 63 təşkilat olmaqla, 170-dən çox universitet daxildir. Vurğulayıb ki, müəssisə tərkibində mövcud olan qurumlarla AİI arasında əlaqələrin qurulması yönündə əlindən gələni əsirgəməyəcək.





Görüşdə elmi-tədqiqat sahəsində əməkdaşlığın həyata keçirilməsi, tələbə və müəllim mübadiləsi, birgə konfrans və seminarların təşkili sahəsində müzakirələr aparılıb.

# "Ərəb mənbələrində azərbaycanlı alim və ədiblər (VII-XVII əsrlər)" kitabı nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutu Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin müşaviri, Misirdə Azərbaycan diasporunun sədri, tədqiqatçı-alim Seymur Nəsirovun "Ərəb mənbələrində azərbaycanlı alim və ədiblər (VII-XVII əsrlər)" adlı kitabını nəşr etdirib.

Kitabda Azərbaycan tarixi və coğrafiyası haqqında qısa məlumat verilməklə yanaşı, "Azərbaycan" sözünün ərəb dilində oxunma şəkilləri, mənası və nisbəsi haqqında da bəhs edilib.

Əsərdə, həmçinin 121 mənbəyə istinad edilərək, başda böyük sərkərdə və dövlət xadimi Səlahəddin Əyyubi, Misirdə həkimlərin rəhbəri hesab edilən məşhur həkim Fətullah ibn Nəfis, Misirin baş hakimi Əfzələddin Xunəci, Misirin və Şamın qazısı İbn Qazıəsgər, fiqhin əsasları və ərəb dili qrammatikası üzrə böyük alim İbn əl-Həcib əd-Dvini olmaqla, hicri tarixi ilə II əsrdən X əsrədək elmin müxtəlif sahələrində yazıb-yaratmış yüz alimin həyat və yaradıcılığı haqqında məlumat verilib.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata keçirir. "İlahiyyat nəşrləri" adı altında layihəyə müəllimlərimizin və bu sahədə çalışan mütəxəssislərin kitablarının müxtəlif dillərdən tərcümə olunmuş əsərlərinin nəşri daxildir. Eyni zamanda, İnstitutun qarşısına qoyduğu məqsədlərdən biri də




ilahiyyat sahəsindəki problemləri araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.

# “Heydər Əliyev irsinin gənc nəslin vətənpərvərlik ruhuna təsiri” mövzusunda tədbir

Türk Ağsaqqalları Arasında Əlaqələrin İnkişafı İctimai Birliyi (TAİB) və Azərbaycan İlahiyyat İnstitutu 20 dekabr 2023-cü il tarixində “Heydər Əliyev irsinin gənc nəslin vətənpərvərlik ruhuna təsiri” mövzusunda tədbir keçirib.

Tədbirdə Türkiyə Ağsaqqalları Arasında Əlaqələrinin İnkişafı İctimai Birliyinin üzvləri, Aİİ rəhbərliyi və kollektivi iştirak edib.

Ulu öndər Heydər Əliyevin və dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Dövlət Himni səsləndirilib.

Tədbirdə Aİİ rektor, dosent Aqil Şirinov çıxış edib. O, ümummilli lider Heydər Əliyevin sovet dövründə və ölkəmiz müstəqillik qazandıqdan sonra dahi şəxsiyyətin hakimiyyətə yenidən qayıdışı ilə milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində məqsədyönlü siyasətindən söhbət açıb. Hazırda bu siyasətin cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Daha sonra TAİB sədri, AMEA-nın müxbir üzvü, YAP Veteranlar Şurasının üzvü Südeyif İmamverdiyev dahi rəhbər, ulu öndər Heydər Əliyev haqqında xatirələrini bölüşüb, onun həyat yolundan söz açıb. Dahi rəhbər Heydər Əliyevin ölkəmizin azadlığı və müstəqilliyi uğrunda misilsiz işlərindən bəhs edib. S.İmamverdiyev Ulu Öndərin Azərbaycan xalqı qarşısında, ölkəmizin müstəqilliyi, milli-mənəvi dəyərlərimizin qorunması uğrunda əvəzolunmaz xidmətlərindən maraqlı xatirələrini bölüşüb.





## Beynəlxalq simpozium

Türkiyə Respublikasında İstanbul Araşdırma və Təhsil Mərkəzi, İstanbul Mərmərə Universiteti və İstanbul Mədəniyyət Universitetinin birgə təşkilatçılığı ilə 19 dekabr 2023-cü tarixində “Osmanlı dövründə əxlaq elmi: alimlər, əsərlər və məsələlər” mövzusunda beynəlxalq simpozium keçirilib. Simpoziumda dünyanın bir çox universitetindən alimlər, o cümlədən Azərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarov da iştirak edib.

İstanbul İslam Araşdırmaları Mərkəzində baş tutan simpoziumun açılış mərasimində İstanbul Araşdırma və Təhsil Mərkəzinin rəhbəri və İslam Araşdırmaları Mərkəzinin direktoru, professor Murtaza Bedir və Mərmərə Universitetinin professoru Ömer Türker açılış nitqi ilə çıxış ediblər.

A.Qafarov beynəlxalq simpoziumda “Osmanlı dövründə fəlsəfi əxlaq əsərlərin siyasət fəlsəfəsi aspektindən təhlili” mövzusunda məruzə ilə çıxış edib. O, Osmanlı filosoflarının əxlaq əsərlərinin klassik yunan və Orta əsr İslam mədəni mühitində qələmə alınmış əxlaq fəlsəfəsi əsərləri arasında yeri və əhəmiyyəti haqqında danışıb. A.Qafarov məruzəsində əsas problemlərin əxlaqla siyasət arasındakı əlaqələr olduğuna diqqət çəkərək, müasir dövrdə bu iki elm sahəsi arasındakı münasibətlərin pozulduğunu qeyd edib.




Daha sonra Osmanlı dövründə əxlaq fəlsəfəsi əsərlərini siyasi aspektdən panoramik baxışla təhlil edən A.Qafarov əxlaqla siyasət arasındakı münasibətləri siyasət fəlsəfəsinin terminologiyası, problemləri və prinsipləri çərçivəsində və Orta əsr İslam filosoflarının fikirləri ilə müqayisəli şəkildə təhlil edib.

# İslam maliyyəsinə dair dərs vəsaitinin təqdimat mərasimi keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda 20 dekabr 2023-cü il tarixində AİI-nin və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) birgə hazırladıqları "İslam maliyyə sistemi və onun Azərbaycandakı perspektivləri" adlı dərs vəsaitinin təqdimat tədbiri keçirilib.



Tədbirdə İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov İİTKM ilə əməkdaşlığın əhəmiyyətindən, eləcə də bu əməkdaşlığın nəticəsi kimi ortaya çıxan dərs vəsaitinin İslam maliyyəsi ilə bağlı məlumatlılığın təmin edilməsindəki rolundan danışıb. Qeyd edib ki, paralel olaraq müvafiq Tədris Proqramı da hazırlanıb və çap edilib ki, bu da dərs vəsaitinin praktiki əhəmiyyətini daha da artırır.

İİTKM-in icraçı direktoru, professor Vüsal Qasımlı İslam maliyyəsinə dair kitabın yazılmasının günümüzün reallığından irəli gələn bir zərurət olduğunu vurğulayıb. O bildirib ki, qlobal biznes trendlərinə cavab verən İslam maliyyə sistemi pulun İslam prinsipləri əsasında idarə edilməsidir. "İslam maliyyəsi iqtisadiyyatın klassik müşküllərindən biri – ədalət, səmərəlilik və azadlıq arasında çözümün yolunu göstərən həllərdəndir. Maraqlıdır ki, İslam maliyyə sektoru Cənub-Cənub, Şimal-Cənub və Üçbucaq əməkdaşlıq formatları daxilində qlobal trendlərə adaptasiya olunur və resursların, bilik və təcrübənin ədalətli bölgüsünü təşviq edir", – deyə V.Qasımlı qeyd edib.

İİTKM rəhbəri daha sonra vurğulayıb ki, İslam maliyyəsi BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə həmahənglik təşkil etməklə, ESG (ətraf mühit, sosial və idarəetmə) çərçivəsində sosial məsuliyyəti təlqin edir, yaşıl və davamlı məhsullara marağı artırır: "İqlim dəyişikliyinin gətirdiyi maddi riskləri nəzərə alaraq, İslam maliyyə sektoru iqlim liderliyi, strateji iqlim idarəçiliyi, iqlimlə bağlı əməliyyat inteqrasiyası, performansın ölçülməsi və hesabatlılıq, iqlim davamlılığı üzrə əməkdaşlıq və mübadilə kimi prinsiplərə söykənir".

Təqdimatda çıxış edənlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, millət vəkili Ceyhun Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, Türk iqtisadiyyatı fakültəsinin dekanı Mehmet Yuce, "İslam maliyyə sistemi və onun Azərbaycandakı perspektivləri" adlı dərs vəsaitinin həmmüəllifi, İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin sədri, iqtisad üzrə fəlsəfə doktoru Ruslan Atakişiyev çıxış edərək kitabın əhəmiyyətindən danışıblar.

Dərs vəsaitinin ön sözünü İslam Əməkdaşlıq Təşkilatının İslam Ölkələri üzrə Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin baş direktoru Zəhra Zümrüd, giriş hissəsini İİTKM-nin icraçı direktoru, professor Vüsal Qasımlı yazıb. Kitabın elmi redaktorları AİI-nin rektoru, dosent Aqil Şirinov və kafedra müdiri, dosent Əhməd Niyazov, rəyçiləri isə UNEC İslam Maliyyə Mərkəzinin rəhbəri, professor Zahid Məmmədov və Bakı Dövlət Universitetinin professoru Sərvər Abbasovdur. Vəsait AİI Elmi Şurasının qərarı ilə çapa tövsiyə olunub.

Kitabda İslam iqtisadiyyatı, İslam maliyyə sistemi, bu sistemin elementləri və səciyyəvi xüsusiyyətləri kimi məsələlərə aydınlıq gətirilib. Müəlliflər İslam iqtisadiyyatının nəzəri olaraq mahiyyətini və prinsiplərini izah edib, İslam iqtisadiyyatına və İslam maliyyəsinə aid olan "zəkat", "infaq", "qərzi-həsən", "kəffarə" və digər anlayışların sosial-iqtisadi aspektlərini aydınlaşdırıblar.

# Müəssisələrarası əməkdaşlıq əlaqələri genişlənir

İstanbul Aydın Universiteti Himayəçilər Şurasının sədri Mustafa Aydın 27 dekabr 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.

AİI rektoru, dosent Aqil Şirinov qonağa ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Bildirib ki, İnstitut Prezident cənab İlham Əliyevin 2018-ci il 9 fevral Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb. AİI-nin xarici ali təhsil müəssisələri ilə beynəlxalq əlaqələrin qurulmasında maraqlı olduğunu bildirən rektor qısa müddət ərzində ilahiyyat sahəsində dünyanın tanınmış bir çox qabaqcıl universiteti ilə əməkdaşlıq protokolları imzaladığını diqqətə çatdırıb.

İnstitutun bakalavriat, magistratura və doktorantura pillələri üzrə tədris həyata keçirdiyini söyləyən A.Şirinov vurğulayıb ki, AİI-də təhsil tamamilə ödənişsizdir.

Tədris zamanı bütün dinlər haqqında tələbələrə geniş məlumatlar verildiyini diqqətə çatdıran rektor İnstitut müəllimlərinin öz sahələrinin peşəkar mütəxəssisləri olduqlarını bildirib.

İstanbul Aydın Universiteti Himayəçilər Şurasının sədri Mustafa Aydın təmsil etdiyi qurumda 17 fakültə üzrə 46 000 tələbənin təhsil aldığını qeyd edib. M.Aydın ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə tərəflər arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb.

Sonda qonaq İnstitutun inzibati binası ilə tanış olub.

## Elmi konfrans materialları nəşr edilib



Azərbaycanın görkəmli dövlət və ictimai-siyasi xadimi Nəsib bəy Yusifbəylinin anadan olmasının 140 illiyi münasibətilə Azərbaycan İlahiyyat İnstitutu və Azərbaycan "Türk Ocağı"nın təşkilatçılığı ilə çap olunan "İstiqlal savaşında Nəsib bəy Yusifbəyli yolu" mövzusunda elmi konfransın materialları işıq üzü görüb.

Kitabın təqdimat mərasimində AİI rektoru, dosent Aqil Şirinov bildirib ki, XIX əsrin sonu–XX əsrin əvvəllərində Vətəninin taleyüklü məsələlərinin həlli və xalqının mənafeyinin qorunması ilə bağlı çiyinləri üzərinə böyük yük düşən görkəmli dövlət xadimlərimiz arasında Nəsib bəy Yusifbəylinin xüsusi yeri var.

Nəsib bəy Yusifbəylinin həyatını xalqına həsr edən şəxsiyyət olduğunu vurğulayan rektor onun qısa ömür yaşamasına baxmayaraq, böyük xidmətlər göstərdiyini qeyd edib. O, yaşadığı və fəaliyyət göstərdiyi dövrdə daim Azərbaycan mədəniyyəti, inkişafı yolunda dayanmadan səylə çalışıb.

Azərbaycan "Türk Ocağı"nın rəhbəri, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı Azərbaycan tarixinin Milli Azadlıq Hərəkatında N.Yusifbəylinin oynadığı xüsusi roldan bəhs edib. N.Yusifbəylinin Xalq Cümhuriyyətinin başlıca simalarından biri olduğunu bildirən Akif Aşırlı onun Baş nazir və maarif naziri olduğu dönəmlərdəki fəaliyyətini yüksək qiymətləndirib.

Dövlət İdarəçilik Akademiyası Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova Nəsib bəy Yusifbəylinin ictimai-siyasi, dövlətçilik fəaliyyətində istiqlalçılığın aparıcı xətt kimi mühüm yer tutduğunu bildirib.

Tarix elmləri doktoru, professor Nəsiman Yaqublu, siyasi elmlər üzrə fəlsəfə doktoru Qərənfil Xəlilova, filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Qəsəbova Nəsib bəy Yusifbəylinin parlament və mətbu fəaliyyəti, maarifçilik ideyaları, görkəmli dövlət xadiminin irsinin tarixi əhəmiyyəti barədə çıxış ediblər. Onlar maarifçi ziyalının Cümhuriyyət dövründəki fəaliyyətini qeyd edərək, milli şüurun formalaşmasında əvəzsiz xidmətlərindən söhbət açıblar.

## Tələbələr muzeydə olublar



Azərbaycan İlahiyyat İnstitutu "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisaslarının I kurs tələbələri ali təhsil müəssisəsinin Mülki müdafiə fənni müəllimi, ehtiyatda olan mayor İlham Fərzəliyevin müşayiəti ilə 26 dekabr 2023-cü il tarixində Azərbaycan Hərb Tarixi Muzeyində olublar.

Muzeyin rəisi, polkovnik Əzizağa Qənizadə tələbələrə geniş məlumat verib. Ə.Qənizadə Azərbaycan Hərb Tarixi Muzeyinin 1992-ci ildə yaradıldığını, bu illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb. O bildirib ki, iki mərtəbədən ibarət muzey Azərbaycanın hərb tarixini, hərb sənətini dövrlər üzrə öz ekspozisiya və vitrinlərində əks etdirir.

Məlumat üçün bildiririk ki, AİI tələbələrin dünyagörüşünün formalaşdırılması, onların intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində silsilə tədbirlərini davam etdirir.

## "Hədis əzbərləmə" yarışması

Azərbaycan İlahiyyat İnstitutunun tələbələri arasında 11 dekabr 2023-cü il tarixində "Hədis əzbərləmə" yarışması keçirilib.

Yarışmanın münsiflər heyətində İlahiyyat fakültəsinin müəllimləri – fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov, fəlsəfə üzrə fəlsəfə doktoru Əmir Kahayev, dosent Namiq Abuzərov, fəlsəfə üzrə fəlsəfə doktoru Qadir Səfərov təmsil olunublar.

Tələbələr tərəfindən maraqla qarşılanan yarışmada qaliblər münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyən olunub. Beləliklə, "Hədis əzbərləmə" yarışmasında birinci yerə Rauf İbrahimxəlilov, ikinci yerə Zeynəb Xəlilli, üçüncü yerə Şəhriyar Fərhadov layiq görülüblər.

Müsabiqənin sonunda qaliblər mükafatlandırılıb, iştirakçılara diplom və təşəkkürnamələr təqdim edilib.

Məlumat üçün bildiririk ki, ali təhsil müəssisəsində tələbələrin dünyagörüşlərinin formalaşdırılması, intellektual səviyyələrinin, elmi biliklərinin artırılması, gələcəkdə mütəxəssis kimi yetişmələri üçün müxtəlif yarışmalar, müsabiqələr keçirilir.

# Elmi Şuranın iclası





Azərbaycan İlahiyyat İnstitutunda 26 dekabr 2023-cü il tarixində Elmi Şuranın genişləndirilmiş iclası keçirilib. İclasda payız semestrinin yekunları, qış imtahan sessiyasına hazırlıq, ali təhsil müəssisəsinin ümumi fəaliyyəti və cari dövrdə tədrisin təşkili məsələləri müzakirə olunub.

İclasda İnstitutun rəhbər heyəti, müəllimlər və əməkdaşlar iştirak ediblər.

AİI rektoru, dosent Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra, 1 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn yeni təqvim ili münasibətilə səmimi arzularını ifadə edib.

İnstitut rəhbəri daha sonra 2023-cü ildə görülən işlər, qarşıda duran hədəf və vəzifələr haqqında bəhs edib.

Bakı İlahiyyat Kollecinin yaradılmasının İnstitut üçün böyük əhəmiyyətini vurğulayan rektor qeyd edib ki, müəssisəni bitirənlər dünyəvi fənlərlə yanaşı, dini biliklərə də yiyələnəcəklər. Bu isə AİI-yə din elmləri sahəsində daha savadlı abituriyentlərin qəbuluna gətirib çıxaracaq.

Ali təhsil müəssisəsinin rektoru təhsilalanlar üçün nəzərdə tutulmuş ödənişsiz ərəb dili kurslarının fəaliyyətinə toxunub, dil bacarıqlarının mükəmməlləşdirilməsi üçün bu proqramların təşkilinin vacibliyini vurğulayıb.

AİI-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent Mübariz Camalov 2023/2024-cü tədris ili payız semestri üzrə dərslərin keyfiyyəti, tələbələrin dərslərə davamiyyəti, eyni zamanda, qış imtahan sessiyasına hazırlıqla bağlı məlumat verib. Prorektor, həmçinin dərsliklərin yazılması prosesi haqqında da fikirlərini bölüşüb.

İnstitutun Elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov "İlahiyyat nəşrləri" adı altında ötən dövr ərzində ali təhsil müəssisəsinin müəllim və əməkdaşlarının əməyi sayəsində dərc olunan kitablardan bəhs edib. O, magistratura və doktorantura səviyyələrinə qəbulla bağlı məsələlərə, AİI kitabxanasının fəaliyyətinə toxunub, eləcə də müəssisənin xarici əlaqələri, imzalanmış protokollar barədə məlumat verib.

İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova, Dillər və ictimai fənlət kafedrasının müdiri, dosent İlkin Əlimuradov müzakirələrə qoşularaq, tədris zamanı qarşıya çıxan problemlər, onların həll yolları barədə fikirlərini səsləndiriblər.

İclas cari məsələlərin müzakirəsi ilə davam edib.

# Rektor "Nə? Harada? Nə zaman?" intellektual oyununun iştirakçıları ilə görüşüb



Azərbayan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 29 dekabr 2023-cü il tarixində Gənclər və İdman Nazirliyi Yasamal Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılğı ilə "Heydər Əliyev İli" çərçivəsində baş tutan "Nə? Harada? Nə zaman?" intellektual oyununda AİI-ni təmsil etmiş tələbələrlə görüşüb.

Rektor yarışmada İnstitutu layiqincə təmsil etdiklərinə görə tələbələrə təşəkkürünü bildirib. O, gənclərin belə yarışlarda iştirakını təqdir etdiyini, bundan sonra da onlara lazımi şəraitin yaradılacağını bildirib. Həmçinin gənclərin elmi axtarışlara sövq edilməsi, bilikli, bacarıqlı mütəxəssislər kimi yetişmələri üçün İnstitutun bütün imkanlardan istifadə edəcəyini vurğulayıb.

Tələbələr yarışma haqqında təəssüratlarını bölüşüb, onlara göstərilən diqqət və dəstəyə görə İnstitut rektoruna təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, yarışmada İnstitutu iştirakçı qismində – Yunis Əliyev, Mirabbas Soltanov, Cəmilə Cəfərli, Məmmədli Zəhra, Məhəmməd Abbasov, Şahin Müzəfərov və Aqşin Məmmədov təmsil ediblər. Tələbələrimiz yarışda III yeri qazanıblar.

Azərbaycan İlahiyyat İnstitutu
**Bülleten**
№ 8
iyul-dekabr
2023






















**Təsisçi:**
Azərbaycan
İlahiyyat İnstitutu

**Baş redaktor:**
Aqil Şirinov

**Redaksiya şurası:**
Mirniyaz Mürsəlov
Ayşən Aslanova
Elnarə Ağaoğlu
Rəna Həsrətova

**Məsul redaktor:**
Elnarə Ağaoğlu

**Texniki redaktor:**
Hilal Ağamoğlanov

**Foto:**
Mirehtimad Nurizadə

**Ünvan:**
Məhəmməd Naxçıvani, 29

**Əlaqə nömrəsi:**
(+994) 12 436 77 66

Tiraj: 400

**Elit Poliqraf MMC-də**
çap olunub

ait.edu.az
bulleten@ait.edu.az
ilahiyyatinstitutu
ilahiyyatinstitutu